Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

17
İYUN
2020-ci il
№ 95 (4226)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


## PAŞİNYANIN 24 İYUN MOSKVA SƏFƏRİ ƏRƏFƏSİNDƏ ERMƏNİ MEDİASINDA PUTİNİ ŞANTAJ KAMPANİYASI - YA SAHİB ÇIXIN, YA DA AMERİKA...

■ səh. 7 ■



■ səh. 11 ■

## Dünya sənayesi pandemiyadan çökdü, Azərbaycanda isə əksinə - 0,4 faiz artım, beş ayda...

Pandemiya ilə mübarizədə Sizin əldə etdiyiniz nəticələri başqa ölkələrlə müqayisə edirik - Macarıstanda magistr təhsili alan azərbaycanlı gənc Ramil Quliyev Prezidentə daha nə yazdı...

■ səh. 2 ■

Qarabağdan İrəvana üçüncü erməni yolu İranla sərhədyanı bölgələrimizdən keçir - İran reaksiya verməlidirmi, Avroparlament kimi...

■ səh. 4 ■

Azərbaycan Ermənistanı hərbi-diplomatik müstəvidə diz çökdürür, Avroparlamentin bəyanatının presedent yaradacağı qorxusu gündəmdə...

■ səh. 9 ■

Azərbaycan Türkiyənin "Altay" tankının əsas istehsalçılarından biri ola bilər

■ səh. 8 ■

Koronavirus müxalifətimizin daha bir qüsurunu açdı - ictimai əhəmiyyətli heç bir maarifçilik işi aparılmır...

■ səh. 5 ■

Virusdan vəfat edənlər arasında 65-dən yuxarı yaşlılarımız üstünlük təşkil edir - köhnə qadağa yenidən tətbiq oluna bilərmi...

■ səh. 14 ■

Pandemiya dövrü üçün Azərbaycanda hansı sahələr gəlirlə işlədi...

■ səh. 11 ■

Məşhurların yas yerlərində kütləvi karantin qayda pozuntularına daha çox rast gəlinir...

■ səh. 15 ■

■ səh. 3 ■

Hikmət Hacıyev Rusiya-Azərbaycan sərhədində keçid məntəqəsində gözləyən vətəndaşlarımıza real şəraitə ən uyğun çağırış etdi - qaydalara əməl edin, növbə gözləyin...



■ səh. 6 ■

Pandemiya üçün ən təhlükəli ölkələr sırasından Ermənistan necə çıxarılıb?





Avroparlamentdən Ermənistana yeni Qarabağ zərbəsi gözlənir - ermənilər üçün şokun ikinci mərhələsi, qanun qəbul olunsa...

■ səh. 3 ■

Milli Şura bütün ümidlərini neft qiymətlərinin daha da düşəcəyinə bağlayıb - gülməli təbrik dialoqu...

■ səh. 5 ■



Paşinyan ölkəni sürətlə diktaturaya doğru aparır - siyasi rəqiblərə qarşı repressiya güclənir...

■ səh. 7 ■

Həftəsonu sərt karantindən sui-istifadə - beşinci gündən kütləvi olaraq rayonlara köç başlayır

■ səh. 12 ■

## Pandemiya ilə mübarizədə Sizin əldə etdiyiniz nəticələri başqa ölkələrlə müqayisə edirik - Macarıstanda magistr təhsili alan azərbaycanlı gənc Ramil Quliyev Prezidentə daha nə yazdı...

**Macarıstanın Sizeged şəhərində magistr təhsili alan bir qrup azərbaycanlı magistr tələbənin adından Quliyev Ramil Aydın oğlu da Prezident İlham Əliyevə müraciət edib.**



"Çox hörmətli cənab Prezident!

Azərbaycandan kənarda təhsil alan azərbaycanlı tələbələrdən biriyəm. ADA universitetinin bakalavr pilləsini bitirəndən sonra Macarıstanın Sizeged şəhərində magistr təhsili alıram.Vətənimizdəki prosesləri diqqətlə izləyirəm. Azərbaycanda koronavirusla mübarizə sahəsində Sizin rəhbərliyinizlə görülən işləri və əldə olunan nəticələri başqa ölkələrlə müqayisə etmək imkanımız var, müqayisələr aparırıq. Bakıda yaşayan valideynlər və dostlarla danışırıq. Belə bir virusun mövcudluğu şəraitində vətəndən uzaqda qürbətdə olmağın, üstəlik, tələbə həyatı yaşamağın çətinliklərini özünüz bilirsiniz.

Ən böyük təsəllimiz odur ki, Sizin gördüyünüz işlər sayəsində vətənimiz Azərbaycanda xalqımız üçün dünyada nisbətən ən təhlükəsiz və sağlam həyat şəraiti təmin edə bilmisiniz. Bundan əlavə olaraq, başqa ölkələrdə qalmış Azərbaycan vətəndaşlarının ölkəmizə daşınması üçün də çox səmərəli işlər görürsünüz. Ümid edirik ki, Sizin xaricdən azərbaycanlıları ölkəmizə qaytarmaq üçün böyük bacarıqla yaratdığınız imkanlardan biz də bəhrələnə biləcəyik.

Sizə inanırıq. Azərbaycanda koronavirusla mübarizədə əldə etdiyiniz nəticələrlə qürur duyuruq. Bizimlə birgə təhsil alan başqa ölkə gənclərinə Sizin Azərbaycan adından 30-a yaxın ölkəyə humanitar yardım etməyinizdən fəxrlə danışırıq.

Sizin apardığınız siyasətin kölgəsində özümüzü güvənli hiss edirik" - deyə R.Quliyev müraciətində qeyd edib.

***Baki-xeber.com***

# Prezident İlham Əliyevlə "Microsoft" şirkətinin vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib

**İyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Louise və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**

Videokonfransda Azərbaycan tərəfdən Prezidentin köməkçisi Şahmar Mövsümov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirli Ramin Quluzadə iştirak edib.



# Xüsusi imtiyazdan sui-istifadə halları paytaxtın giriş-çıxışında dözülməz tıxac yaratdı

**DİN-in Mətbuat Xidməti iyunun 16-sı səhər saatlarında Bakının giriş və çıxışlarında yaranmış tıxaclara aydınlıq gətirib.**



Qurumdan bildirilib ki, bu gün Bakı şəhərinin giriş və çıxışlarında xüsusi karantin rejimi ilə əlaqədar qurulmuş polis postlarında müşahidə edilən avtomobil tıxacının aradan qaldırılması üçün operativ tədbirlər həyata keçirilib. İlkin araşdırmalarla tıxacın yaranma səbəbləri də məlum olub. Müəyyən edilib ki, xüsusi karantin rejmi dövründə fəaliyyət göstərən təşkilat və müəssisələrin şəxsi avtomobilləri ilə hərəkətlərinə icazə verilmiş əməkdaşları onlara verilmiş bu imtiyazdan sui-istifadə edərək sərtləşdirilmiş rejim günlərindən öncə paytaxtı tərk edərək respublikanın müxtəlif regionlarına getməyə cəhd ediblər.

Həmin şəxslərin müəyyən edilərək barələrində qanunauyğun tədbirlər görülməsi üçün araşdırmalar aparılır.

## Səhiyyə komitəsinin növbəti onlayn iclası keçirildi

**Milli Məclisin Səhiyyə komitəsinin növbəti onlayn iclası keçirilib. İclasın gündəliyinə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanunlarının layihələri daxil edilib.**

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov iclası açaraq, komitə üzvlərini gündəlikdəki məsələlərlə tanış edib. Sonra komitə üzvləri müzakirə olunan qanun layihələri ilə bağlı fikirlərini bildiriblər.

Sonda müzakirə olunan sənədlər Milli Məclisin plenar iclasında baxılması üçün tövsiyə edilib.

# Bakıda koronavirusa yoluxanların sayı artıb - ən çox yoluxma rayonları Yasamal, Xətai və Binəqədi...

**Bakıda koronavirusa yoluxma halları artıb. "Trend"in məlumatına görə, Azərbaycanda ötən həftə koronavirusa yoluxanların 49,5 faizi Bakının payına düşürdüsə, hazırda bu rəqəm 50,2 faiz təşkil edir.**

Ölkə üzrə ikinci ən çox yoluxma Gəncə-Qazax zonasındadır. Bu bölgə üzrə göstərici 12,4 faizdir. Yoluxmanın 12,3 faizi Abşeron, 8,8 faizi Aran zonası, 7,2 faizi isə Lənkəran şəhərində qeydə alınıb. Yoluxanların 2,9 faizi xaricdən gələnlərdir.

Hazırda ölkə üzrə yoluxma hallarının 1,7 faizi Şəki-Zaqatala, 1,5 faizi Quba-Xaçmaz, 1,2 faizi Yuxarı Qarabağ bölgəsində, 1,8 faizi isə Dağlıq Şirvan ərazilərindədir. Ölkə üzrə ən az yoluxma halı isə Naxçıvanda qeydə alınıb. Bu ərazidə yoluxma 0,05 faizdir.

Bakı şəhəri üzrə ən çox yoluxma halları paytaxtın Yasamal, Xətai və Binəqədi rayonlarında olub. Paytaxt üzrə yoluxanların 12,7 faizi Yasamal, 12,1 faizi Binəqədi, 12,2 faizi isə Xətai rayonunun payına düşür. Bakı üzrə yoluxmanın 12 faizi isə Sabunçu rayonunda qeydə alınıb. Yoluxma hallarının 10,7 faizi Nəsimi, 9,6 faizi Suraxanı 8,8 faizi Nərimanov rayonunda qeydə alınıb. Yoluxma hallarının 7,3 faizi Nizami, 6,6 faizi Qaradağ, 4,4 faizi Xəzər, 3,2 faizi Səbail rayonlarındadır. Bakı şəhəri üzrə ən az yoluxma halı isə Pirallahı rayonunda olub.

Ölkədə koronavirusa yoluxanların 21 faizi 50-59 yaş, 18 faizi isə 30-39 yaş arasında olan şəxslərdir. Yoluxanların 5 faizini 0-9 yaş, 2 faizini isə 80 yaşdan yuxarı şəxslər təşkil edir. Yoluxanların 54 faizi qadın, 46 faizi isə kişilərdir. Bu virusdan dünyasını dəyişənlərin 35 nəfəri (43 faiz) 60-69 yaş, 19 nəfəri (23 faiz) nəfəri 70-79 yaş, 15 nəfəri (18 faiz) isə 50-59 yaş həddində olub.

Xatırladaq ki, iyunun 16-na qədər Azərbaycanda 10324 nəfər koronavirusa yoluxub. Onlardan 5739 nəfər sağalıb, 122 nəfər isə dünyasını dəyişib. Hazırda ölkədə 4463 nəfər aktiv koronavirus xəstəsidir. Bu tarixə qədər isə ölkə üzrə 386 min 898 nəfər üzərində koronavirus testi keçirilib.



## Azərbaycanda daha 338 nəfərdə koronavirus aşkarlandı, 209 nəfər sağaldı, 4 nəfər vəfat etdi

**Azərbaycan Respublikasında yeni növ koronavirus (COVID-19) infeksiyasına 338 yeni yoluxma faktı qeydə alınıb, 209 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 10 662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 5 948 nəfər müalicə olunaraq sağalıb, 126 nəfər vəfat edib, 4 588 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 801, ötən müddət ərzində isə ümumilikdə 391 699 test aparılıb.

# Hikmət Hacıyev Rusiya-Azərbaycan sərhədində keçid məntəqəsində gözləyən vətəndaşlarımıza real şəraitə ən uyğun çağırış etdi - qaydalara əməl edin, növbə gözləyin...

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya-Azərbaycan sərhədində baş vermiş hadisəyə münasibət bildirib.**



Baki-xeber.com xəbər verir ki, AZƏRTAC-ın sualını cavablandıran Hikmət Hacıyev deyib: "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin Dağıstan istiqamətində Məhərrəmkənd rayonu, Kullar postunda baş vermiş hadisə ilə bağlı təəssüfümüzü bildiririk. Ümumiyyətlə, COVID-19 qlobal pandemiyası səbəbindən 2020-ci ilin mart ayının ortalarından etibarən ölkəmizin quru sərhədləri və xüsusi çarter reysləri vasitəsilə 20 min nəfərdən artıq Azərbaycan Respublikası vətəndaşının ölkəmizə geri qayıdışı təmin edilib.

2020-ci ilin mart ayının sonu, aprel ayının əvvəlindən etibarən Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Samur" sərhəd buraxılış məntəqəsi və beynəlxalq hava limanları vasitəsilə 2976 nəfər Azərbaycan Respublikası vətəndaşının Rusiyadan ölkəmizə geri qayıdışı təmin olunub.

Rusiya Federasiyası ərazisində olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizdəki xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq xüsusi vaxt qrafiki çərçivəsində və qeydiyyat əsasında ölkəmizə geri qayıdışının təmin edilməsi üçün "Evə gedirəm" adlı portal yaradılıb.

Azərbaycan Respublikası və Rusiya Federasiyasının aidiyyəti dövlət qurumları tərəfindən qarşılıqlı əlaqələndirmə şəklində vətəndaşların həftəlik əsasda müəyyən olunmuş qrafik çərçivəsində ölkəmizə geri qayıdışı təmin olunur. Həftəlik qrafik çərçivəsində 19 mayda 120 nəfər, 26 mayda 131 nəfər, 2 iyunda 122 nəfər, 9 iyunda 130 nəfər vətəndaş "Samur" sərhəd buraxılış məntəqəsindən ölkəmizin ərazisinə keçib. Bu qrafik üzrə bu gün 150 nəfərdən artıq vətəndaşın ölkəyə keçməsi təmin olunacaq. Həmçinin bu həftə "Evə gedirəm" portalı vasitəsilə qeydiyyata düşmüş vətəndaşların Bakı-Moskva-Bakı çarter reysi ilə geri qaytarılması da nəzərdə tutulub.

Vətəndaşların ölkəyə geri dönməsi zamanı, ilk növbədə, üstünlük yaşlılara, xəstələrə, qadınlara və uşaqlara, ailələrə verilir və Azərbaycanda karantin üçün ayrılmış məntəqələrin qəbuletmə imkanları nəzərə alınır.

"Samur" sərhəd keçid məntəqəsi ətrafına toplaşan vətəndaşlarımız müəyyən edilmiş qaydalara riayət etməli, növbəlilik prinsiplərini pozmamalı və aidiyyəti dövlət qurumlarının öz fəaliyyətlərini həyata keçirmələrinə mane olmamalıdırlar. Mövcud durumda vətəndaşlarımızı anlayış göstərməyə çağırırıq".

# Avroparlamentdən Ermənistana yeni Qarabağ zərbəsi gözlənir - ermənilər üçün şokun ikinci mərhələsi, qanun qəbul olunsa...

**Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə məruzəçilərinin imzaladıqları məlum bəyanatın Ermənistanda yaratdığı narahatlıq səngimək bilmir. Sözügedən qərar Paşinyan hökumətinə qarşı müxalifətin hücumlarını da xeyli gücləndirib. Müxalifətin ayrı-ayrı qanadının Paşinyan iqtidarına qarşı son aylarda apardığı kampaniya xeyli güclənib və Qarabağ məsələsi üzərində fokuslaşıb.**



Vəziyyət o yerə çatıb ki, bir çoxu Nikol Paşinyanı "Azərbaycana işləməkdə" açıq ittiham edir.

Ermənilər bəyan edirlər ki, əsl həngamə hələ qabaqdadır. Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri David Şahnazaryan news.am saytına mövzu ilə bağlı müsahibəsində deyib ki, əsas məsələ bir neçə gün sonra Avropa Parlamentinin iclasında qəbul ediləcək qanundur. O qəbul edildikdən sonra vəziyyət daha da gərgin olacaq. Avropa Parlamenti-Ermənistan Parlament Əməkdaşlıq Komitəsinin hazırkı həmsədri Arman Eqoyan isə bidirib ki, sözügedən bəyanat AP-nin hansısa bir strukturunun bəyanatı deyil və ümumi iclasda qəbul edilməyib: "Avropa Parlamentinin xarici siyasət məsələlərinə dair rəsmi təklifləri bir neçə gündən sonra təsdiqlənəcək. Bu, artıq Avropa Parlamentinin rəsmi mövqeyi olacaq və son 3 ayda Azərbaycan tərəfinin səyləri üç Avropa parlamentarisinin bəyanatında səslənən sözləri daxil etməyə yönəlib".

Bəyanatda əsas diqqətçəkən, elə həm də erməniləri qıcıqlandıran məqam orada işğal faktının və Azərbaycanın ərazi bütövlüyünün aşkar vurğulanmasıdır.

## *Elman Nəsirov: "AP münaqişənin ərazi bütövlüyü çərçivəsində həllini özündə ehtiva edən çox ciddi sənəd qəbul edəcək"*

Belə görünür ki, AP sözügedən məsələ ilə bağlı qanun qəbul etdikdən sonra bu, Ermənistanın işğalçılıq fəaliyyətinə vurulan növbəti daha güclü zərbə olacaq.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Elman Nəsirov bir sıra məqamlara toxundu: "Əvvəla bu bəyanatın özəlliyi ondan ibarətdir ki, onu Avropa Parlamentinin Azərbaycan, Ermənistan və AP-nin Azərbaycan, Gürcüstan üzrə məruzəçiləri və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri birgə imzalayıblar. Sözügedən bəyanatda bizim üçün əlverişli vacib məqamlar var. İlk növbədə, Ermənistanın separatçı qurumla nəqliyyat əlaqələrinin genişləndirilməsi ilə bağlı atdığı addım qanunsuz sayılır.

*"Artıq qurumda sözügedən prosesə start verilib və yaxın zamanda biz bunu görəcəyik"*

Yeni yolun çəkilməsi beynəlxalq hüquqa zidd addım kimi dəyərləndirilir. İkincisi, bəyanatda Azərbaycanın ərazi bütövlüyü və suverenliyi, sərhədlərinin toxunulmazlığı ideyası öz əksini tapıb. Üçüncüsü, Ermənistanın Azərbaycan torpaqlarını işğal faktı qeyd olunub. Bu səbəbdən də Ermənistan mətbuatında sözügedən məsələ ilə bağlı müzakirələr səngimək bilmir. Xüsusən də D.Şahnazaryan öz çıxışlarında buna çox böyük yer verir və hesab edir ki, bu, Ermənistan diplomatiyasının biabırçı məğlubiyyətidir. Eyni zamanda, onu da qeyd edir ki, Ermənistan rəhbərliyi öz məğlubiyyətini əsaslandırmaq üçün də addımlar atmır. Bu onu göstərir ki, tam passiv və məğlubiyyəti ilə barışmış bir hakimiyyət Ermənistanı idarə edir. Bax, Şahnazaryan belə bir mövqe ortaya qoyur. Bununla belə, onu da qeyd edir ki, bu hələ başlanğıcdır. Qarşıdakı günlərdə AP Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sənəd qəbul edəcək. Azərbaycanın mövqeyi münaqişənin beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyü çərçivəsində həllini özündə ehtiva edir. AP məhz bu mövqeyi müdafiə edən çox ciddi sənəd qəbul edəcək. Artıq AP-də sözügedən prosesə start verilib və yaxın zamanda biz bunu görəcəyik. Bu, artıq Ermənistan rəhbərliyinin biabırçı xarici siyasətinin bir ifadəsi olacaq. Ondan sonra artıq Paşinyanın hakimiyyətdə qalmaq məsələsi günün aktual mövzusuna çevriləcək".

**E.Nəsirovun fikrincə, bütün bunlar onu göstərir ki, Azərbaycanın beynəlxalq mövqeləri kifayət qədər güclüdür: "Ölkə Prezidenti cənab İlham Əliyevin hücum taktikasına söykənən xarici siyasət diplomatiyası konkret nəticələrə əsaslanır. Avropa parlamentarilərinin qəbul etdiyi son bəyannamə bir daha onu göstərir ki, Azərbaycan çox uğurlu xarici siyasət kursu həyata keçirir. Bunun səmərəsi get-gedə daha çox özünü göstərir".**

***Vidadi ORDAHALLI***

**Ermənistanın işğalçı siyasətinin ifşa edilməsində Azərbaycanın atdığı addımlar öz effektiv nəticələrini verməkdədir. Artıq himayədarları da erməniləri müdafiə etməkdə aciz qalıb. Rəsmi İrəvanın son addımı - zəbt edilmiş ərazilərə Ermənistandan daha bir yol çəkmək niyyəti Avropa İttifaqı tərəfindən də haqlı narazılıqla qarşılanıb.**

# Qarabağdan İrəvana üçüncü erməni yolu İranla sərhədyanı bölgələrimizdən keçir - İran reaksiya verməlidirmi, Avroparlament kimi...

***Mübariz Əhmədoğlu:** "Bu, Avropadan əvvəl İranı narahat etməlidir"*



Məsələ burasındadır ki, Ermənistandan Azərbaycanın işğal altındakı ərazilərinə üçüncü avtomagistralın çəkilişinə hazırlıq gedir. Bununla bağlı məsələ hələ ötən il gündəmə gətirilib. Bu yaxınlarda isə Dağlıq Qarabağdakı qondarma rejimin yeni "prezidenti" Araik Arutyunyan Azərbaycanın Arazboyu ərazilərini Ermənistanın Gorus rayonu ilə birləşdirmək üçün yeni avtomagistralın çəkilməsinə hazırlıq getdiyini deyib.

Bundan əvvəl Ermənistanı Qarabağla Gorus-Laçın-Şuşa-Xankəndi və Vardenis-Kəlbəcər-Ağdərə magistralları birləşdirirdi. İkinci yolu Ermənistan bir neçə il əvvəl istifadəyə verib. Üçüncü və artıq Arazboyu Cəbrayıl, Füzuli, Zəngilan rayonlarını Ermənistanla birləşdirəcək yolun çəkilməsində düşmən ölkənin məqsədi isə həmin ərazilərdə qanunsuz məskunlaşmanı genişləndirmək, münbit kənd təsərrüfatı torpaqlarını istismar etməkdir.

Təbii ki, Azərbaycan buna göz yuma bilməz. Ölkəmiz Ermənistanın bədnam niyyətini reallaşdırmasına imkan verməmək üçün beynəlxalq qanunvericiliyin ona verdiyi üstünlüklərdən və bütün diplomatik vasitələrdən istifadə edir. Ölkəmizin bu siyasəti artıq öz bəhrəsini verməkdədir. Belə ki, iyunun 10-da Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand, Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Basesku Ermənistanla Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı birgə bəyanat yayıb.

Bəyanatda bu qərarın Azərbaycanın müvafiq orqanları ilə razılaşdırılmadan verildiyi və bunun beynəlxalq hüququn pozulması olduğu qeyd edilir.

Maraqlıdır ki, Ermənistanın çəkmək istədiyi yol Azərbaycanın İranla həmsərhəd olan işğal altındakı ərazilərini əhatə edir. İran bununla bağlı necə bir davranış nümayiş etdirməlidir?

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İranın Ermənistana və ermənilərə həddsiz inamı Ermənistanın imkanlarını genişləndirir:"Elə məsələlər var ki, orada ölkələrin münasibəti konkret olmalıdır. Ermənilərin Qarabağdan Ermənistana üçüncü yolu çəkmək istəmələri beynəlxalq hüquqa göstərilən hörmətsizliyin yeni nümunəsidir. Dünya birliyi onların hərəkətlərində belə davranışları ilk dəfə deyil ki, görür. Üçüncü yolla bağlı məsələdə ermənilər olduqca ciddi diplomatik dərs aldılar. Avropa Parlamenti konkret olaraq həmin addımı pislədi. Bu bütün Avropa ölkələrinin adından verilən bəyanat idi. Həmin qurum və digər nüfuzlu təsisatlar qondarma qurumda keçirilən son seçkiləri də pisləyən mövqe ortaya qoymuşdu. İranın bu cür məsələlərə susqun qalması maraqlı görünür. İranın qondarma qurumdakı seçkilərlə bağlı verdiyi bəyanat da məzmun baxımından qaneedici deyildi. Bəli, doğru qeyd edirsiniz ki, həmin yol onunla həməsrhəd olan əraziləri əhatə edir. Bu, Avropadan əvvəl İranı narahat etməlidir. Çünki onun birbaşa sərhədlərində

təhlükəsizlik üçün təhdid yaranır. Desək ki, İranın buna gücü çatmır, inandırıcı görünməz. Çünki bu ölkə özü ilə həmsərhəd və hətta sərhədlərindən xeyli aralı yerlərdə bəzən açıq müharibəyə girişir. Bunu da təhlükəsizliyinə olan təhdidlə əlaqələndirir. Belə olan halda sözügedən məsələdə İranın susqunluğu bəzən razılıq əlaməti kimi də qeyd edilə bilər. Bugünlərdə İranda bizim soydaşlarımız Ermənistan səfirliyinin önündə aksiya keçirdilər. Açıq formada Ermənistanın İsraildə səfirlik açmasına etiraz edildi. Aksiya iştirakçıları Ermənistan bayrağını yandırıblar.

Etirazlara rəsmi İrəvanın tezliklə İsraildə Ermənistan səfirliyi açmaq bəyanatı səbəb olub. İran vətəndaşları bəyan ediblər ki, İran hər zaman Ermənistanın ən ağır günündə qonşu ölkə kimi yanında olub, lakin İrəvanın İranın düşməni olan İsraildə səfirlik açması iki ölkə arasındakı münasibətlərə xələl gətirir və bu xəyanətdir.

İranın rəsmiləri az qalırlar ki, Ermənistan səfirliyində keşik çəksinlər. Hər gün bir nazir gedib, müxtəlif vədlərlə onların könlünü alır. Ermənistana belə həssaslığın kökündə duran səbəblər İrana imkan vermir ki, Qarabağdan çəkilən və onun sərhədlərindən keçən üçüncü yola açıq etirazını bildirsin".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan parlamentinin "Çiçəklənən Ermənistan" fraksiyasından deputatı Naira Zöhrabyan Avropa Parlamentinin üç deputatının Qarabağa çəkilməsi planlaşdırılan üçüncü yol barədə verdikləri bəyanatı rəsmi İrəvanın tam diplomatik məğlubiyyəti adlandırıb.**

# Avroparlamentin Qarabağ bəyanatı Ermənistan parlamentini qarışdırdı - ermənilər də Azərbaycanın uğurundan danışır...

***Məhəmməd Əsədullazadə:** "Avropa Parlamentinin məlum qərarı bizim siyasi uğurumuzdur və qarşı tərəf də bunu etiraf edir"*



Onun sözlərinə görə, bəyanatda Dağlıq Qarabağ və ona bitişik ərazilər işğal edilmiş ərazilər kimi tanınır, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğu vurğulanır: "Avropa Parlamentinin Ermənistan və Azərbaycan məsələləri üzrə daimi məruzəçiləri, o cümlədən Avropa Parlamenti-Ermənistan parlament əməkdaşlığı üzrə Komitəsinin həmsədri təhlükəli və biabırçı bəyanat yayıblar. Mən Avropa Parlamenti-Ermənistan parlament əməkdaşlığı üzrə Komitəsinin keçmiş həmsədri kimi, həmin komitədən heç vaxt bu cür açıq-aşkar antierməni bəyanata rast gəlməmişdim. Sözügedən bəyanat diplomatik rüsvayçılıqdır, bizim bütün xarici siyasət korpusumuzun sərt məğlubiyyətidir. Bundan daha betər antierməni bəyanatı təsəvvür etmək çətindir".

N.Zöhrabyan onu da qeyd edib ki, həmin bəyanatla bağlı hakim çoxluğun siyasi komandasında hansısa başadüşülməyən və xaotik hərəkətlər müşahidə olunur, bu biabırçı bəyanata görə günahkar axtarmağa çalışırlar.

Görünən odur ki, məlum baş verənlər ermənilər üçün gözlənilməz zərbə olub. Bununla belə, erməni tərəfi Azərbaycanın uğurunu etiraf etmək məcburiyyətində qalıb.

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, həqiqətən də Avroparlamentin məlum qərarı Er-

*"Danışıqların dayandığı hazırkı dövrdə bu, Ermənistana endirilən tərs şillədir"*

mənistana güclü zərbə oldu: "O üzdən, ermənilər bunu həzm edə bilmirlər. Bu, Azərbaycanın diplomatik qələbəsi idi. Sözügedən mötəbər qurum ortaya ədalətli mövqe qoydu. Avropa Parlamentinin məlum qərarı Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı vəziyyəti ortaya qoydu. Bu, hüquqi bir president yaradır və Azərbaycanın ədalətli mövqeyinin qorunmasını özündə əks edir. Eyni zamanda gələcəkdə işğal olunmuş ərazilərin güc yolu ilə azad edilməsinə siyasi dəstəyi özündə ehtiva edir. Ermənistan tərəfi bundan çox narahatdır. Erməni deputatların timsalında bu özünü çox aydın şəkildə göstərir.

Təsadüfü deyil ki, müxalif mövqedən çıxış edən erməni siyasiləri bunu Ermənistanın xarici siyasətinin fiaskosu kimi qiymətləndirirlər. Artıq beynəlxalq təşkilatlar Qarabağ məsələsində Azərbaycanın mövqeyini müdafiə edirlər. BMT səviyyəsində qəbul olunmuş ərazi bütövlüyümüzü dəstəkləyirlər. Ona görə də Avropa Parlamentinin məlum qərarı bizim siyasi uğurumuzdur və qarşı tərəf də bunu etiraf edir. Danışıqların dayandığı hazırkı dövrdə bu, Ermənistana endirilən tərs şillədir".

***Vidadi ORDAHALLI***

**Milli Şuranın videokonfransından yeni görüntülər yayılıb. Cəmi bir neçə dəqiqəlik videogörüntü Milli Şura üzvlərinin əsl simalarını növbəti dəfə bütün çılpaqlığı ilə ortaya çıxarıb. Məlum olur ki, şura üzvləri neftin ucuzlaşmasından sevinirlər.**




# Milli Şura bütün ümidlərini neft qiymətlərinin daha da düşəcəyinə bağlayıb - gülməli təbrik dialoqu...

## *Arzuxan Əlizadə: "Bu adamlar öz məqsədlərinə çatmaq üçün hətta vətəndaşı olduqları dövlətin də çökməsinə razıdırlar"*

Belə ki, Gültəkin Hacıbəyli xüsusi canfəşanlıq göstərərək Azərbaycan neftinin 14 dollara düşdüyünü bildirir. Sevincindən qəhqəhə çəkir və buna görə israrla onu təbrik etmələrini istəyir: "Gözünüz aydın, neft artıq 14 dollara düşüb, məni təbrik edin". Ardınca Cəmil Həsənli belə deyir: "Bu, son hədd deyil də, yoxsa təbrik edərdim, gözləyək, axıracan düşsün, sonra təbrik edərəm".

Sirr deyil ki, Azərbaycanın büdcəsi əsasən neft gəlirləri hesabına formalaşır. O üzdən, "qara qızıl"ın qiymət itirməsinin nə dövlətə faydası var, nə də xalqa. Ucuzlaşma digər neft ölkələrində olduğu kimi, Azərbaycanda da büdcə gəlirlərinin azalmasına səbəb olur. Bu, nəticədə gec-tez hər bir vətəndaşa öz təsirini göstərir. Nəzərə alsaq ki, büdcə gəlirlərinin böyük hissəsi neftdən gələn vəsaitlər hesabına formalaşır, vətəndaşların pensiya, təqaüd, sosial müavinətləri, əməkhaqları və digər dəstək tədbirlərinin maliyyəsi büdcədən ödənilir. Bu vəsaitlər hesabına ölkədə genişmiqyaslı abadlıq-quruculuq işləri görülür, insanları narahat edən problemlər həll olunur, yeni məktəb binaları, uşaq bağçaları tikilir, tələbələr pulsuz təhsil alır, ordumuz müasir silah və texnikalarla qüdrətini artırır, minlərlə iş yeri açılır və s.

Gör bunlar nə qədər acımasızdılar ki, neftin xalq, büdcə üçün nə demək olduğunu düşünmək belə istəmirlər. Əksinə, neftin qiymətinin daha da ucuzlaşmasını və ölkədə sosial gərginliyin yaranmasını istəyirlər.

Məsələyə münasibət bildirən Azərbaycan Milli İstiqlal Partiyasının sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, Milli Şurada təmsil olunanlar millilikdən uzaqdırlar: "Bir müddətdir ki, ardıcıl olaraq yayılan videogörüntülər sayəsində özünə "milli" deyən qrupda toplaşan bəzi "siyasilərin", əslində, millilikdən və dövlətçilikdən kənar zehniyyətə sahib olduqlarının şahidi oluruq. Ölkə gəlirlərinin bilavasitə neftdən asılılığını bilərək, məlum vəziyyətlə əlaqədar dünya bazarında neftin qiymətinin düşməsinə sevinmək heç bir halda müxalifətçilik deyil və ən yumşaq sözlə ifadə etsək, öz dövlətinə düşmən mövqedə olmaq deməkdir. Çünki sosial şəbəkələrə nəzər yetirsəniz görərsiniz ki, həmin vaxt buna yalnız ermənilər sevinirdilər. Bu adamlar öz məqsədlərinə çatmaq üçün hətta vətəndaşı olduqları dövlətin də çökməsinə razıdırlar, hətta bunu arzulayırlar da. Bu özünü "siyasətçi" hesab edən şəxs anlamır ki, dövlətin iqtisadi gücünün azalması, ilk növbədə, onun sıravi vətəndaşının maddi rifah halının daha da pisləşməsinə səbəb olacaq. Bu adam nəyə sevindiyinin fərqində deyil. Özü də buna o adam sevinir ki, özü on il müddətində heç bir parametrinə görə buna layiq olmadan deputat təyin edilib və elə bu dövlətin neft gəlirləri ilə formalaşan büdcəsi hesabına Avropa turnelərinə çıxıb. Ən acınacaqlısı da odur ki, bu adamlar hələ də bu zehniyyətlə ölkəyə rəhbərlik etmək xəyalındadırlar.

*"Sosial şəbəkələrə nəzər yetirsəniz görərsiniz ki, həmin vaxt buna yalnız ermənilər sevinirdilər"*

**Narazı elektoratın müəyyən bir hissəsini də uzun illərdən bəri yalançı vədlər verməklə yanlarında saxlayırlar. Hesab edirəm ki, artıq yaxın və uzaq çevrələrində olan bir çox şəxs bunların, əslində, kim olduqlarını dərk etməyə başlayıb və o səbəbdən də yaxın gələcəkdə sıralarının əhəmiyyətli dərəcədə seyrələcəyinin də şahidi olacağıq".**

***Vidadi ORDAHALLI***

**Bu gün bütün dünya koronavirus pandemiyası ilə mübarizəyə səfərbər edilib. Azərbaycan da bu prosesdə ən öndə gedən ölkələrdən biridir. Ölkəmizdə koronovirus infeksiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə hökumət tərəfindən sistemli addımlar atılır.**



# Koronavirus müxalifətimizin daha bir qüsurunu açdı - ictimai əhəmiyyətli heç bir maarifçilik işi aparılmır...

## *Elşən Həsənov: "Müharibə elan olunubsa, biz bütün siyasi intriqaları kənara atıb birlikdə mübarizə aparmalıyıq"*

Xüsusi karantin rejiminin tətbiq olunması da bu məqsədə xidmət edir. Koronovirusun vura biləcəyi zərərin qarşısının alınması üçün dövlət başçısının tapşırığına əsasən Nazirlər Kabineti müvafiq Tədbirlər Planı təsdiqləyib və bu plan icra olunmaqdadır. Məqsəd vətəndaşların sosial müdafiəsini tam təmin etməkdir. Görülən bu işlərin fonunda vətəndaşlar karantin rejiminin qaydalarına əməl etməlidir. Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planına əsasən 2,5 milyard manat ayrılıb ki, Azərbaycanda həm iqtisadi sabitlik təmin edilsin, məşğulluqla bağlı problemlər öz həllini tapsın, həm də bizim makroiqtisadi və maliyyə vəziyyətimiz sabit olsun. Dövlət başçısı qeyd edib ki, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Prezident çıxışları zamanı vətəndaşlara müraciətində qaydalara əməl etməyə çağırır ki, biz bu ağır vəziyyətdən az itki ilə çıxa bilək.

Təəssüflə qeyd edə bilərik ki, biz bu istiqamətdə, xüsusilə də siyasi palitranın bütün spektrinin həmrəylik nümayiş etdirdiyini görmürük. Radikal müxalif partiyaların əhalinin maarifləndirilməsi istiqamətində hər hansı çağırışlar etdiyinin şahidi olmuruq. Həmin dairələr, hətta belə məqamda da yalnız hakimiyyəti tənqid edir, görülən bəzi işlərə kölgə salan təbliğat aparırlar. Siyasi palitradakı bu mənzərə bizi qane edə bilərmi?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, pandemiyanı müharibə ilə eyniləşdirirlər: "Müharibə elan olunubsa, biz bütün siyasi intriqaları kənara atıb birlikdə mübarizə aparmalıyıq. Təəssüf ki, bunu bütün siyasi partiyaların davranışlarında görmürük. Bəziləri fürsətçil davranmağa çalışıb, öz siyasi intriqaları üçün vəziyyətdən yararlanmağa meyl edir. Bunu bütün siyasi partiyalara şamil edə bilmərik. Xüsusilə də parlamentdə təmsil olunan partiyalar bu istiqamətdə olduqca fəaldırlar və əsl dövlətçi mövqe ortaya qoyublar. Mən şahidi oldum ki, Milli Məclisdə təmsil olunan siyasi partiyalar COVID-19 pandemiyasının qarşısının alınması və sosial-iqtisadi nəticələrinin aradan qaldırılması tədbirləri ilə əlaqədar bəyanat qəbul etdilər. Qeyd edim ki, belə bir bəyanatla bağlı təşəbbüs Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülüb. Parlamentdə təmsil olunan bütün partiyaların bu təşəbbüsə qoşulması təqdirəlayiq idi. Bəyanatda siyasi partiya olaraq bu məsələdə həmrəy mövqe bildirilib. Bəyanatda koronavirusun dünyada törətdiyi böyük bəlalara qarşı Azərbaycan dövlətinin apardığı mücadilə, fədakarlıq birmənalı və geniş şəkildə ifadə olunub. Bu mübarizənin Azərbaycanın ictimai-siyasi mühitində təqdim olunmasında, ictimai rəyin formalaşmasında fəal iştirak etmək məsələsində bütün partiyalar belə mövqe ortaya qoymalıdır. Belə bir niyyət ifadə edilməlidir ki, bundan sonra da koronavirusa qarşı aparılan mübarizədə dövlətimizin siyasətinin çox böyük uğurla getdiyini bütün cəmiyyətimizə çatdırmalıyıq, ona dəstəyimizi ifadə etməliyik. Eyni zamanda, bütün siyasi qüvvələr bu gün xalqımızla, dövlətimizlə bərabər olaraq öz imkanları, potensialı daxilində pandemiyaya qarşı aparılan mübarizədə fəal yer almalıdır. Bu gün dövlət səviyyəsində koronavirus pandemiyası ilə mübarizədə sistemli tədbirlər həyata keçirilirsə, siyasi təsisatların bütün spektri dövlətə dəstəyini ifadə etməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**Dünyada koronavirusa yoluxma və ölümlə bağlı ən təhlükəli ölkələrin adları açıqlanıb. Belə ki, dünyanın COVID-19-un qeydə alındığı 213 ölkə və bölgəsində təhlükəli infeksiyadan ölənlərin sayı 439 085 nəfərə çatıb. Bu barədə "Report" ayrı-ayrı ölkələrin koronavirusla bağlı statistikasına istinadən xəbər verir.**

# Pandemiya üçün ən təhlükəli ölkələr sırasından Ermənistan necə çıxarılıb?




***Rauf Zeyni:*** *"Ermənistanın təhlükəli dövlət kimi o siyahıya düşməməsi üçün erməni lobbisi də gecə-gündüz çalışır"*

***Azər Həsrət:*** *"Belə rəqəmlər varkən, Ermənistanın qeyd olunan siyahıdan kənarda qalması artıq kimlərinsə bura süni müdaxiləsindən xəbər verir"*

Son məlumatlara görə, dünyada koronavirusa yoluxanların ümumi sayı 8 113 679 nəfərə çatıb. Hazırda 3 460 993 nəfər aktiv koronavirus xəstəsidir. Pandemiya ərzində təhlükəli virusdan, ümumilikdə, 4 213 601 nəfər sağalıb.

Dünyada koronavirusa ən çox yoluxma ABŞ-da qeydə alınıb. Birləşmiş Ştatlarda təhlükəli infeksiyaya 2 182 950 yoluxma qeydə alınıb, koronavirusdan 118 283 nəfər ölüb.

COVID-19-a yoluxma üzrə siyahıda ikinci yerdə Braziliya qərarlaşıb. Cənubi Amerika ölkəsində 891 556 insan virusa yoluxub. Bununla yanaşı, 44 118 insan koronavirusdan vəfat edib.

Qaonşu Rusiya da koronavirusa yoluxanların sayı üzrə ilk üçlükdə qərarlaşıb. Şimal qonşumuzda COVID-19-a 537 210 yoluxma təsdiqlənib, 7 091 insan pandemiyanın qurbanı olub.

Cənubi Asiya ölkəsi Hindistanda 343 026 insan cari ilin ən təhlükəli virusuna yoluxub, 9 915 nəfər virusdan dünyasını dəyişib.

Böyük Britaniya Qərbi Avropanın koronavirusdan ən çox əziyyət çəkən ölkəsidir. Birləşmiş Krallıqda 296 857 nəfər COVID-19-a yoluxub, 41 736 insan ölüb. Qərbi Avropanın digər ölkəsi İspaniyada yoluxma sayı 291 189, pandemiya qurbanlarının sayı isə 27 136 nəfər təşkil edir.

Siyahıda 7-ci yerdə virusa 237 290 yoluxma sayı ilə İtaliya qərarlaşıb. Qərbi Avropanın bu ölkəsində 34 371 nəfər virusdan ölüb.

Peru dünyada koronavirusa yoluxma hallarının sayına görə 8-ci yerdədir. Amerika ölkəsində 232 992 nəfər COVID-19 daşıyıcısı kimi qeydiyyata alınıb.

Cənub qonşumuz İran dünyada koronavirusa ən çox yoluxma hallarının sayına görə 9-cu yerdədir. Bu ölkədə infeksiyaya 189 876 nəfər yoluxub, 8 950 insan ölüb.

Almaniya dünyada koronavirus xəstələrinin sayına görə 10-cu yerdədir. Qərbi Avropa ölkəsində COVID-19-a 188 044 nəfər yoluxub, 8 885 insan pandemiyanın qurbanı olub.

Xatırladaq ki, koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Ümumdünya Səhiyyə Təşkilatı fevralın 11-də infeksiyanın adını COVID-19 qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib.

Çox qəribədir ki, bu gün pandemiyanın geniş yayıldığı, ölüm və yoluxanların sayının günü-gündən artdığı Ermənistan bu siyahıdan kənarda qalıb. Halbuki, Ermənistan bu siyahıda ön yerlərdən birini tutmalı idi. Bilirik ki, bu ölkədə vəziyyət o qədər kritikdir ki, Rusiya mətbuatı oranı "koronavirus cəhənnəmi" adlandırıb. Rusiya mətbuatında Ermənistanda koronavirusun yaratdığı ciddi fəsadlarla və bu bəlanın bütün dünyanı təhdid etdiyi ilə bağlı nəşr edilən geniş reportaj-araşdırma fikrimizcə, daha çox diqqəti cəlb etməli idi. Siyahıda adları çəkilən dövlətlərin hər birinin ərazisi, əhalisi Ermənistanın ərazisindən də, əhalisinin sayından da qat-qat çoxdur. Həmin ölkələrin hər birinin milyonlarla vətəndaşı var, Ermənistanın vətəndaşlarının sayı isə heç 3 milyon nəfəri ötmür. Bu halda, Ermənistanın koronavirusa yoluxma və ölümlə bağlı ən təhlükəli ölkələrin adlarının yer aldığı siyahıda olmaması təəccüb və təəssüf doğurur.

Bu gün Allah ümidinə qalan və qonşularına, eləcə də bütün dünyaya bəla saçan Ermənistanla bağlı beynəlxalq qurumların rəy bildirməsi gözləniləndir. Hazırda bütün Qafqazın "koronavirus cəhənnəmi" sayılan Ermənistan bu siyahıdan necə çıxarılıb, yaxud niyə salınmayıb?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, koronavirusla "hayvirus"un heç bir fərqi yoxdur, "hayvirus" bizim başımızın bəlasına çevrilib. "200 ildir "hayvirus"a qarşı mübarizə aparırıq, indi də koronavirusa qarşı mübarizəmizi davam etdiririk. Əlbəttə, dünyada elə ölkələr var ki, onlar koronavirusun yayılma miqyasına və ölüm hallarına görə təhlükəli ölkələr siyahısındadırlar. Təəssüflər olsun ki, həm ÜST tərəfindən, həm də sosial şəbəkələrdə yayılan bir çox material insanlar arasında bir çaşqınlıq yaratdı. Bəzi tanınmış alimlər, professorlar, mütəxəssislər bildirirdilər ki, koronavirus yoxdur, bu, beynəlxalq güclərin bir oyunudur. Bu, çox təhlükəli informasiya idi. Təəssüf ki, bizim də bəzi vətəndaşlarımız məhz sosial şəbəkələrdəki yayılanlara inanır, bu problemlər də ondan qaynaqlanır. Biz bu virusun yayılmasından insanların özünü qoruması üçün məcburi maarifləndirmə işlərini daha yüksək səviyyədə davam etdirməliyik. O ki, qaldı mənfur qonşularımızın bu siyahıda yer almamasına, bilirik ki, onlar dünya informasiya şəbəkəsində mövcud olan lobbiçilik fəaliyyətləri ilə müəyyən bir müddətdə istər işğal, istər müharibə, istər terror, istər soyqırım, istərsə də koronavirusla bağlı öz məlumatlarını gizlədə bilirlər. Onlar bu kimi məsələlərdə "usta"dırlar. Bu gün həm də dünyanın başı özünə qarışıb və Ermənistan onları maraqlandırmır. Ermənilər də fürsətdən istifadə edərək, informasiyaları gizlədə bilirlər. Dediyiniz kimi, Rusiya mediası Ermənistanı "koronavirus cəhənnəmi" adlandırıb və eyni zamanda, Paşinyan da elan edib ki, cəhənnəmin ortasındadırlar. Amma buna baxmayaraq, nə üçün dünyanın tanınmış informasiya agentlikləri Ermənistandakı real vəziyyəti əks etdirmirlər? Bunun da səbəbi ikili standartla bağlıdır. Həm xristian ölkəsi olaraq, həm də xaricdəki erməni lobbisi tərəfindən qorunan bir ölkə kimi informasiya dəhlizlərindən maneəsiz keçə bilir və bununla da informasiyalarını gizlədirlər, saxtakarlığa əl atıb saxta imic yarada bilirlər. Ermənistanın təhlükəli dövlət kimi o siyahıya düşməməsi üçün erməni lobbisi də gecə-gündüz çalışır. Bu baxımdan, düşünürəm ki, Ermənistanla əlaqədar hələ gerçəkliklər dünya informasiya şəbəkələrinə sızmayıb. Ancaq orada bir koronavirus - "hayvirus" partlayışı olsa, bu, region ölkələri üçün də böyük təhlükədir".

R.Zeyni qeyd etdi ki, Azərbaycanın informasiya agentlikləri Ermənistanda mövcud olan təhlükə ilə bağlı mütəmadi olaraq dünya ictimaiyyətinə informasiyalar çatdırmalıdırlar.

Siyasi şərhçi Azər Həsrət də bizimlə söhbətində qeyd etdi ki, Ermənistanda hazırkı durum həqiqətən də fəlakət həddindədir: "Statistikada yer almasa da, Ermənistan virusun geniş yayıldığı ən təhlükəli ölkələrin sırasındadır. Bu ölkənin əhalisinin sayı 3 milyona yaxındır. Artıq bu günə olan məlumata görə, 17 min 489 nəfərdə koronavirusa yoluxma qeydə alınıb, həmin adamlardan 293 nəfəri dünyasını dəyişib. Təbii ki, bu rəqəm bu qədər az əhalisi olan ölkə üçün dəhşətlidir. İndi isə biz rəsmi faktlara əsaslanaraq Ermənistanda nə qədər insanın virusa yoluxduğuna və öldüyünə baxaq. Hər 1 milyon nəfərə 5 min 902 nəfər yoluxma, hər 1 milyon nəfərə isə 99 ölüm halı düşür. Ermənistanda hazırda koronavirusa yoluxma və bu virusdan ölmə halları fəlakət həddindədir. Bu siyahını tərtib edənlərin niyə Ermənistanı bu siyahıya salmadığının səbəbini bilmirik. Amma başqa ölkələrlə müqayisə edib göstəririk ki, Ermənistan həqiqətən də bu siyahıda adı olmamasına baxmayaraq, fəlakət həddindədir, dəhşətli bir vəziyyətdədir. Məsələn, Rusiyada Ermənistandan iki dəfəyə yaxın az yoluxma və iki dəfədən az ölüm qeydə alınıb. Bugünkü məlumata görə, Rusiyada hər bir milyon nəfərə yoluxma halı 3738 nəfər düşür. Ermənistanda isə 6 minə yaxındır. Yaxud Rusiyada son məlumata görə, hər bir milyon nəfərə 50 nəfər ölüm halı düşür. Ermənistanda isə bu rəqəm 99 nəfərdir. Görürsünüzmü, fərq nə qədərdir? Yaxud haqqında çox danışılan İtaliyanı götürək. Həmin ölkədə ümumi əhalinin nisbətinə böləndə hər bir milyon əhaliyə 3924 yoluxma düşür. Qonşu İranda isə hər bir milyon insan 2262 yoluxma var. Almaniyada hər bir milyon nəfərə 2245 yoluxma düşür. Müvafiq olaraq Almaniyada hər bir milyon nəfərə 106, İranda isə 107 ölüm hadisəsi qeydə alınıb. Qardaş Türkiyədə isə vəziyyət Ermənistanla müqayisədə çox yaxşıdır. Hər bir milyon nəfərə 2133 yoluxma, 57 ölüm hadisəsi qeydə alınıb. Göründüyü kimi, yoluxma halı Ermənistandan 3, ölüm halları isə 2 dəfə azdır. Yəni belə rəqəmlər varkən, Ermənistanın qeyd olunan siyahıdan kənarda qalması artıq kimlərinsə bura süni müdaxiləsindən xəbər verir. Bu siyahıya Ermənistanın əlavə edilməsi yaxşı hal olardı. Yeri gəlmişkən, Azərbaycanda da vəziyyət oxucular üçün maraqlı olar deyə, rəqəmlər söyləmək istəyirəm. Azərbaycanda hər bir milyon nəfərə 1019 yoluxma və 12 ölüm hadisəsi düşür. Yəni bu, Ermənistanla heç bir dərəcədə müqayisə ediləcək rəqəmlər deyil".

Azərbaycanda koronavirus pandemiyası ilə bağlı kifayət qədər tədbir görüldüyünü nəzərə çatdıran A.Həsrət bildirdi ki, Azərbaycanın o siyahıya düşməsi mümkün deyil. A.Həsrət qeyd etdi ki, Azərbaycanda 400 minə yaxın test həyata keçirilib, bu, az rəqəm deyil. "Bu o deməkdir ki, hər milyon nəfərimizə 38-40 minə qədər test düşür. Ermənistanda isə cəmi 85 min 500 test keçirilib, onun da hər milyonuna 28 min 875 test düşür. Yəni Ermənistanda 85 min testdən sonra 17 min 489 yoluxma aşkarlanıb. Azərbaycan qədər 400 min test keçirmiş olsaydı, Ermənistanda yoluxma hallarının sayı yəqin ki, 80-100 minə qədər gəlib çıxacaqdı. Bu baxımdan, siyahı tərtib edilərkən Ermənistana yanaşmada subyektivliyə yol verilib. Amma, bütövlükdə, biz Ermənistan da daxil olmaqla, bütün bəşəriyyətin bu bəladan qurtulmasını arzu edirik" - deyə A.Həsrət qeyd etdi.

***İradə SARIYEVA***

# Paşinyanın 24 iyun Moskva səfəri ərəfəsində erməni mediasında Putini şantaj kampaniyası - ya sahib çıxın, ya da Amerika...

## Aydın Mirzəzadə: "Kreml Paşinyanın tələblərinə yox deyəcək"

**İrəvan Rusiya üçün şərtlər qoyur: "Qərar verin, ya bizim düdük altında rəqs edəcəksiniz, ya da Amerikaya yollanacağıq". Bu fikirlər Ermənistanin "Birinci" informasiya nəşrindəki "İrəvan seçim təqdim edir: inhisarın və ya strateji tərəfdaşlığın faydaları" adlı məqalədə yer alıb.**



Müəllifə görə, iyunun 24-də Moskvaya yola düşəcək Paşinyanın Putinlə görüşü baş tutarsa, o zaman mövzu enerji sahəsində əməkdaşlıq olacaq. Üstəlik, Paşinyan "Metsamor" AES-in modernləşdirilməsi məsələsində amerikalılarla keçmiş danışıqlar və əldə olunmuş razılaşmalarla Rusiya Prezidentini şantaj etməyə cəhd edə bilər: "2019-cu ilin oktyabr ayında ABŞ-a səfəri zamanı Ermənistan Respublikası Ərazi İdarəetmə və İnfrastruktur nazirinin müavini Akop Vardanyan Dövlət Katibliyinin və ABŞ Energetika Nazirliyinin nümayəndələri ilə görüşüb. O bildirib ki, erməni tərəfi Amerika istehsalı olan kiçik modullu reaktorun qurulmasında maraqlıdır. Bir qədər sonra ABŞ-ın Ermənistandakı səfiri Lin Tresi Ərazi İdarəetmə və İnfrastruktur naziri Suren Papikyan ilə virtual müzakirə edib. Beləliklə, sitat gətirilən mənbəyə görə, Ermənistan Rusiyaya ABŞ ilə enerji əməkdaşlığına başlayacağını və bunun Aİİ-də olma şərtlərinə uyğun olmadığını elan edir. Rəsmi İrəvan "Ya geostrateji tərəfdaşlığı, ya da "Qazprom"un faydalarını təyin edin" deyib".

O da qeyd olunub ki, bunun Ermənistana nə verəcəyi və Paşinyan komandasını şantaj etmək üçün Putinin cavabı yaxın zamanlarda bəlli olacaq.

Görünən odur ki, Ermənistan tərəfi eneji məsələləri ilə bağlı tərəflər arasında mövcud olan fikir ayrılıqları ilə əlaqədar Putinlə şantaj dilində danışacağını artıq gizlətmir. Belə görünür ki, Ermənistan sözügedən məsələdə Rusiyanın tutduğu mövqe ilə razılaşmaq fkrində deyil.

Maraqlıdır, bütün bunları ekspertlər necə şərh edirlər?

Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə

> *"Enerji məsələsində Rusiya yalnız öz maraqlarına uyğun gələn addım atacaq"*

görə, Ermənistanın hazırkı rəhbərliyi Rusiya ilə şantaj dilində danışmağa cəhd edə bilər: "Çünki Nikol Paşinyan hökuməti çox böyük iddialarla çıxış edir. Ölkənin strateji əməkdaşlıq yolunu dəyişməkdə, Ermənistanı Rusiyanın təsir dairəsindən çıxararaq Qərbə doğru yönəltməkdə çox maraqlıdır. Ancaq ortaya sual çıxır, Ermənistan hansı güclə, potensialla və qüdrətlə bunu edəcək? Ermənistan iqtisadi baxımdan zəif ölkələrdən biridir. Bu ölkənin açıq dənizə çıxışı yoxdur və bu səbəbdən ora investisiyalar qoyulmur. Ermənistan Rusiyadan başqa heç bir dövlət üçün maraqlı deyil. Belə olan halda, onun bir dövlət kimi mövcudluğuna, iqtisadi baxımdan ayaqda durmasına səbəbkar olan bir dövlətlə Ermənistanın güc dilində danışması reallıqdan uzaqdır. Digər tərəfdən, bu gün Moskvada Ermənistanın heç də sədaqətli müttəfiq olmaması qənaəti formalaşıb. Ermənistan Rusiyanın bu dövlət üçün etdiklərini nəzərə almır. Ermənilər belə hesab edirlər ki, Ermənistan başqa dövlətlərin təsiri altına düşməyə çalışdığı bir dövrdə belə, onun iqtisadi dövlətini Rusiya təmin etməlidir. Ancaq nəinki Rusiya, buna heç bir dövlət razı ola bilməz. Parad günü və yaxud da başqa vaxt Ermənistan rəsmilərinin Rusiya ilə şantaj, hədə-qorxu ilə danışması heç nə verməyəcək. Çünki sözügedən məsələdə Rusiya söz sahibidir. Rusiya Ermənistana qaz verir, kredit ayırır və s. Ona görə də Kreml Paşinyanın tələblərinə yox deyəcək. Enerji məsələsində Rusiya yalnız öz maraqlarına uyğun gələn addım atacaq".

***Vidadi ORDAHALLI***

---

# Paşinyan ölkəni sürətlə diktaturaya doğru aparır - siyasi rəqiblərə qarşı repressiya güclənir...

## Rəşad Bayramov: "Bütün bunları Paşinyan yaxşı dərk etdiyi üçün repressiv metodlara əl atır ki, rəqiblərini qorxuda bilsin"

**Nikol Paşinyan hakimiyyəti "döyüş hazırlığı" vəziyyətinə gətirib. Ermənistan mediasındakı məlumatlarda bildirilir ki, güc strukturlarının rəhbərlərini dəyişdikdən sonra baş nazir Paşinyan bu idarələrin rəhbərlərinə cəmiyyətə əvvəlki etimadı bərpa etmək üçün bəzi müsbət göstəriciləri göstərməyi tapşırıb.**



Üstəlik, onlara xəbərdarlıq edilib ki, kimsə öz oyununu oynamağa çalışırsa, dərhal əvvəlki rejimin qalıqlarından yaxa qurtarıldığı kimi onlar da uzaqlaşdırılacaqlar.

Bununla Paşinyan siyasi rəqiblərinə qarşı növbəti dözümsüzlük toxumlarını da səpib. Ən başlıcası, hər şeyin baş nazirlə şəxsən razılaşdırılması, onun xəbəri olmadan heç bir şey edilməməsi və onun göstərişlərinin yerinə yetirilməsindən yayınanların işdən uzaqlaşdırılması tapşırılıb.

İyunun 14-də Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) "Çiçəklənən Ermənistan" Partiyasının lideri, oliqarx Qaqik Tsarukyanın evini mühasirəyə alması siyasi böhranın fitilini alovlandırdı. Xüsusi təyinatlılar "Çiçəklənən Ermənistan" Partiyasının ofisində də axtarışlar aparıb. Tsarukyan dindirilmək üçün Milli Təhlükəsizlik Xidmətinə aparılarkən bildirib ki, "geri çəkilmək niyyətində deyil". Onun tərəfdarları MTX-nin binası önündə "Nikol get", "Tsarukyan baş nazirdir" şüarları ilə aksiya keçirib, hətta binaya daxil olmaq istəyərkən xüsusi təyinatlılarla qarşıdurma yaşanıb.

Paşinyanın "küçə inqilabı" ilə hakimiyyətə gələrkən əsas dəstəkçisi kimi çıxış edən və daxili siyasətdə güclənməsində payı olan Tsarukyanın üzərinə xüsusi təyinatlıları göndərməsi Ermənistanda pandemiyanın yaratdığı acınacaqlı mənzərə fonunda təsadüfi deyil.

Paşinyanın bu addımları ölkəni sürətlə diktaturuya sürüklədiyinin göstəricisi sayıla bilərmi?

Politoloq Rəşad Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan bu addımları təsadüfən atmır:"Onun narahatlığı aydın görünür. Paşinyan anlayır ki, artıq hakimiyyəti itirməklə üz-üzə qalıb. Eyni gündə güc strukturlarının təmsilçilərinin istefa ərizəsi yazması təsadüfi deyildi. Proseslərin kənardan idarə edildiyinə dair rəylər səslənir. Hər hardan idarə olunsa da, bunu Paşinyana verilən ciddi xəbərdarlıq mesajı kimi də qəbul edə bilərik. İstefalardan bir gün sonra isə daha maraqlı vəziyyət yarandı. 9 iyunda "Çiçəklənən Ermənistan" Partiyasının lideri Qaqik Tsarukyan hökumətin vədlərini yerinə yetirməsi üçün vaxt verildiyini, lakin ölkəyə investisiyanın gətirilmədiyini, iqtisadiyyatın inkişaf etmədiyini, koronavirusla mübarizədə də uğursuz olduğunu əsas gətirərək istefa tələbi ilə çıxış etdi. Bu proseslərin bir-biri ilə zəncirvari bağlantılı olduğuna qəti şübhə yoxdur. Paşinyan görür ki, komanda üzvlərinin ona göstərdiyi etimadsızlığın fonunda Tsarukyan dərhal hökumətin istefasını tələb edir. Tsarukyan faktiki olaraq parlamentdə ikinci böyük fraksiyaya rəhbərlik edir. Bu da o anlama gəlir ki, artıq Paşinyan üçün mədəni devrilmə planı da hazırdır. Bir qədər də güc qoyulsa, Paşinyanı elə parlamentdə devirmək mümkün olacaq. Bütün bunları Paşinyan yaxşı dərk etdiyi üçün repressiv metodlara əl atır ki, rəqiblərini qorxuda bilsin. Əks təqdirdə onun devrilməsi daha da sürətlənə bilər. Paşinyan komandası proseslərin Rusiyadan idarə edildiyi qənaətində olduqlarına dair fikirlər səsləndirir. İnandırıcıdır, çünkü Rusiyanı Paşinyanın Ermənistanda hakimiyyətdə olması qəti qane etmir".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan Türkiyənin "Altay" tankının əsas istehsalçılarından biri ola bilər

**Ordunun müasir hərbi texnika ilə təmin edilməsi istiqamətində Azərbaycan bu vaxta kimi çoxsaylı mühüm addımlar atıb. Elə bunun nəticəsidir ki, ötən illər ərzində Azərbaycan xaricdən milyardlarla dollar həcmində çoxsaylı müasir hərbi texnikalar alıb.**

Eyni zamanda, bunlara paralel olaraq yerli istehsal da yaradılıb və indi ölkəmizdə mindən çox çeşiddə müdafiə təyinatlı məhsullar istehsal olunur.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, bu gün bir sıra ölkələr Azərbaycana birgə silah istehsalı ilə bağlı təkliflər də edir. Məsələn, bu günlərdə məlum olub ki, Gürcüstan Su-25 təyyarələrinin istehsalını Azərbaycanla birgə inkişaf etdirə bilər. Bunu hərbi ekspert Vaxtanq Maisaya "Rezonansi" qəzetinə açıqlamasında təsdiq edir. Onun sözlərinə görə, hərbi təyyarələrin istehsalının bərpası hər iki ölkə üçün sərfəlidir. Belə bir vaxtda Azərbaycanın tank istehsalında qardaş Türkiyə ilə birgə addımlar atmasının mümkünlüyü ilə də bağlı maraqlı məqamlar üzə çıxıb. Bunu tanınmış rusiyalı hərbi ekspert Aleksey Xlopotov da təsdiq edir:"Azərbaycan ordusu həm Rusiya, həm də başqa dövlətlərdən çox düzgün şəkildə silah nümunələri alır. Bu ənənəni davam etdirərək, Azərbaycan Silahlı Qüvvələri dost Türkiyədə istehsalı başlamış ən yeni "Altay" tankına diqqət yetirə bilər. Mənim fikrimcə, Azərbaycan bu proqramda iştirak edəcək və öz arsenalına yüzlərlə belə ən müasir və ən güclü tankları daxil edəcək".



Azərbaycanın "Altay" tankının istehsalında iştirakı, ekspertlərin fikrincə, həm ölkəmizə böyük dividendlər gətirə, həm də bu silahın ucuz qiymətə ordumuzun ixtiyarına verilməsinə səbəb ola bilər. Məlumat üçün qeyd edək ki, "Altay" Cənubi Koreyanın "K2" tankının müasirləşdirilmiş formasıdır. Tankda "Qara panter"in 60%-dək texnologiyalarından istifadə edilib. Tankın dəyəri isə 5 milyon dollardır. Qeyd edək ki, Koreyanın "K2" tankının imkanları asanlıqla Çin, yaxud Şimali Koreyanın döyüş meydanına çıxara biləcəyi istənilən texnikanı geridə qoyur. Tankda istifadə olunan möhkəm zirehin tərkibi naməlum qalır. "K2" tankının qorunma və əks-hücum mexanizmi mükəmməldir. Bir növ M1A2 markalı ABŞ tankına bənzəyir, amma çəkisi qat-qat yüngüldür. Tank özü avtomatik şəkildə insan müdaxiləsi olmadan hədəfi müəyyən edə və vura bilir. Hədəflər sırasına təkcə maşınlar yox, helikopterlər də daxildir. Düşmənin canına qorxu salan "Altay" isə Türkiyənin hazırladığı 3-cü nəsil müharibə tankıdır. Uzun müddət dizayn mərhələsində olub. Hər cür şəraitdə istifadəsi mümkün olan tank NATO hərəkatının standartlarına uyğundur. O, modern tanklardakı ən yeni texnologiyalarla təchiz edilib. Üstün atəş gücü və hədəfi dəqiq vurma, yüksək hərəkət qabiliyyətinə malikdir. "Altay"da tank komandanı, nişangah, sürücü və doldurucu olaraq 4 nəfər çalışır. Onun üzərində bir çox fərqli sursatdan ata bilən 120 millimetrlik 55 kalibrlik top var. Atış nəzarət sistemi sayəsində hərəkətdə olan hədəfləri belə yüksək dəqiqliklə vurur. Bundan başqa, bu hərbi texnikada hər cür təhlükədən qoruyan zireh heyətə kimyəvi, bioloji, radioaktiv və nüvə təhdidlərinin belə olduğu şəraitdə çalışmağa imkan verir. Xatırladaq ki, bir çox ölkələr, o cümlədən Azərbaycan bu tankla yaxından maraqlanıb. Ölkəmizin Türkiyədən silah idxalında heç bir problem yoxdur və bu mənada "Altay" tanklarının da yaxın tezlikdə ordumuzun ixtiyarında olması tamamilə gözlənilənd. Xüsusən də Azərbaycan istehsal prosesində iştirak edəcəyi təqdirdə bu tanklardan kifayət qədər böyük sayda ordumuzun ixtitarında olması tamamilə gözlənilən sayılır.

Onu da qeyd edək ki, Azərbaycan indiyədək Türkiyədən 122 millimetr çaplı "T-122 Sakarya" reaktiv atəş sistemləri, "Qasırğa" raketləri, ROKETSAN şirkətinin istehsalı olan TR-107 artırılmış mənzilli raketləri və digər silahlar alıb. Özü də bunlar kifayət qədər mükəmməl silahlardır. İndi onların sırasına Altay" tanklarının da daxil olması gözlənilir.

Rusiyalı hərbi ekspert Aleksey Xlopotov isə bildirir ki, Azərbaycan Tükiyə ilə yanaşı, digər ölkələrdən də müasir silah alışını davam etdirəcək:"Hazırda Azərbaycan Silahlı Qüvvələri prezident İlham Əliyevin sayəsində ən müasir və effektiv ordulardan biridir. Özü də təkcə regionda deyil, dünyada... Amma necə deyərlər, silah heç vaxt artıq olmur. Azərbaycanın Qarabağ bölgəsini işğal etmiş Ermənistanın açıq-aydın düşmən davranışını nəzərə alsaq, silah satınalmaları bütün istiqamətlərdə davam etdirilməlidir. O bildirib ki, ilk növbədə rabitə və avtomatlaşdırılmış idarə olunan qoşun vasitələrinin inkişafına diqqət yetirilməsi təqdirəlayiqdir:"Düşünürəm ki, burada İsrail və Fransa kimi ənənəvi tərəfdaşlar Azərbaycana kömək edə bilər. Bura hava hücumundan müdafiə sistemlərinin gücləndirilməsi də aiddir. Yadda saxlamaq lazımdır ki, hava hücumundan keyfiyyətli qorunmanı təmin etməyənə qədər heç bir hücum uğurlu olmayacaq. Eyni zamanda, öz hava qüvvələrini və ilk növbədə taktiki zərbə aviasiyasını genişləndirmək prioritetdir. Həm pilotlu, həm də pilotsuz aparatlardan istifadə edərək, Azərbaycan Ordusu Qarabağda üstünlüyü tam təmin etmək üçün idarəolunan raket və bombalardan ibarət zərbə komplekslərini işə sala bilər. Bu komplekslərin arasında Bakının əldə edə biləcəyi Türkiyə istehsalı olan "Bayraqdar-TB2"-ni qeyd etmək olar ki, Suriyada Rusiya istehsalı "Pansir-1S"-ləri məhv etmişdi. Yüngül, çoxfunksiyalı helikopterlər və eləcə də yeni trendə çevrilən yüngül qırıcılara da ehtiyac duyulur. Məsələn, Türkiyə istehsalı olan "Hürkuş-S". Bu qırıcı ilə Azərbaycan ordusu dağların arasında erməni yaraqlılarının kiçik qruplarını asanlıqla təqib və məhv edə biləcək". Xlopotov qeyd edib ki, Azərbaycanın arsenalında artıq Rusiya istehsalı olan TOC-1A kompleksləri var:"Ancaq onlar kifayət qədər ağır maşınlardır.

**Mənə elə gəlir ki, manevr və mobilliyi təmin etmək üçün Azərbaycana Rusiyanın yeni hərbi sənaye kompleksinə - onlar iyun ayının 24-də Moskvada paradda nümayiş olunacaq, - xüsusilə TOS-2-yə diqqət yetirməlidir. Düşmənin zirehli texnikasına qarşı mübarizə aparmaq üçün İsrail və Amerika istehsalı olan "Spayk" və "Javelin" raketləri də mühümdür". Bütün bunlar ordumuzun malik olduğu müasir hərbi texnikaların çeşid və həcminin daha da artacağı deməkdir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Ermənistanı hərbi-diplomatik müstəvidə diz çökdürür, Avroparlamentin bəyanatının presedent yaradacağı qorxusu gündəmdə...

**Beynəlxalq müstəvidə Azərbaycanın bir-birinin ardınca Ermənistana vurduğu diplomatik zərbələr işğalçı ölkədə şok effekti yaratmaqda davam edir. Ermənistanda hesab edilir ki, Azərbaycan yeni belə qələbələrə imza atmaqda davam edərsə, Dağlıq Qarabağ münaqişəsini yaxın tezlikdə öz maraqları çərçivəsində həll edəcək.**

Bu xüsusda düşmən ölkədə konkret misal kimi Ermənistanla Dağlıq Qarabağ bölgəsini birləşdirən üçüncü avtomobil yolunun inşası ilə bağlı Avropa Parlamenti üzvlərinin birgə bəyanatı göstərlir.

Qeyd edək ki, bu bəyanata Ermənistanda verilən reaksiyalar burada sözügedən sənəd ətrafında böyük bir rezonansın yarandığını üzə çıxarır. Bu da təsadüfi deyil. Çünki Avropa İttifaqı (Aİ) və Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq Komitələrində nümayəndə heyətinin sədri Marina Kalyurand, Avropa Parlamentinin Ermənistan üzrə daimi məruzəçisi Trayan Basesku və qurumun Azərbaycan üzrə daimi məruzəçisi Yelena Zovkonun birgə bəyanatı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq birliyin Bakının yanında yer aldığını bir daha təsdiqlədi. Yenidən məlum oldu ki, Ermənistan istisna olmaqla, beynəlxalq ictimaiyyətin bütün üzvləri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Eyni zamanda, onlar, BMT Təhlükəsizlik Şurasının qətnamələri başda olmaqla, beynəlxalq təşkilatların qəbul etdiyi çoxsaylı qərar və sənədlər əsasında Ermənistan qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasının zəruriliyini İrəvanın diqqətinə çatdırırlar. Təbii ki, Ermənistanın təkbaşına bütün bunlara hansısa müqaviməti mümkün sayılmır. Eyni zamanda Ermənistanı qorxudan odur ki, Avropa Parlamentinin Ermənistanın beynəlxalq hüququ pozan işğal siyasətinə qarşı sərgilədiyi mövqe digər beynəlxalq təşkilatlar üçün də bundan sonra presedent rolunu oynayacaq. İşğal etdiyi ərazilərə çıxış yolları Azərbaycan ordusunun nəzarətində olan Ermənistan yeni infrastruktur inşa etməyə məcbur olsa da, Azərbaycanın işğal altındakı ərazilərində qanunsuz fəaliyyət olan belə addımlar beynəlxalq təsisatların getdikcə daha sərt reaksiyasına səbəb olur. Göründüyü kimi, Azərbaycan hərbi və diplomatik cəbhədə paralel addımlar atmaqla işğalçı ölkəni dalana salır və proseslər ərazi bütövlüyümüzün təmin edilməsi istiqamətində inkişaf edir.

Ermənistan bu durumda onu da anlayır ki, beynəlxalq birtliyin belə bir mövqe sərgilədiyi şəraitdə Azərbaycan Qarabağ məsələsini güc yolu ilə həll edəcək. Qeyd edilən xüsusda Ermənistanın "Irag-ir.am" nəşri yazır:"Avropa Parlamentinin Ermənistan, Azərbaycan üzrə məruzəçiləri, Ermənistan, Azərbaycan və Gürcüstanla Avropa Parlamenti Əməkdaşlıq Nümayəndəliyinin rəhbəri səviyyəsində üçüncü yolun tikintisi ilə bağlı qəbul etdiyi antierməni birgə bəyanatı Bakı rəhbərliyi qarşısında müharibə ilə bağlı yaşıl işıq yandırır. Bunun üçün artıq bir presedent - aprel döyüşləri var. Bu döyüşlər bir sıra amillər əsasında yetişmişdi, bunlardan biri Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 26 yanvar 2016-cı il tarixində Sərsəng su anbarı ilə bağlı qəbul etdiyi qətnamə idi. Ermənistanın Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatına zorla qoşulmasından sonra Azərbaycan problemi müharibə yolu ilə həll etmək niyyətində idi. Bunun üçün müharibənin hüququnun legitimləşdirilməsi vacib idi. Rusiya ilə bu problem Ermənistanı Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilstında təcrid edilməsi və Ermənistana silah tədarükünün dayandırılması, Avropada isə anti-Ermənistan qətnaməsi ilə həll edildi. Görəsən, Ermənistan parlamentindəki aprel döyüşünün detallarını araşdıran istintaq komissiyası bu epizoda toxunubmu? Problem tanklarda dizel yanacağı problemindən daha vacib, müharibənin yetişməsinin siyasi komponentinin olmasıdır. Bu komponentin, o cümlədən Avropa qurumlarının və Minsk Qrupu həmsədrlərinin davranışları barədə dəqiq bir siyasi qiymətləndirmə olmadıqda, komissiyanın rəyi heç bir mənə daşımır və gələcəkdə oxşar siyasi sxemlərin qarşısı alınmayacaq.

Erməni siyasi dairələri, 2016-cı ilin həmin müharibə günlərində olduğu kimi, İrəvanın mərkəzindən kənarda heç bir inkişaf prosesini görməyərək daxili qarışıqlıq və xırda mübahisələr içində vurnuxmağa davam edir. Belə vəziyyətdə Azərbaycanın güc tətbiqi ilə yenidən müəyyən əraziləri öz nəzarəti altına alması təəccüblü olmayacaq". Ermənistan parlamentinin "Çiçəklənən Ermənistan" fraksiyasından olan deputatı Naira Zöhrabyan da eyni mövqeni bölüşür:"Bir daha bildirmək istəyirəm ki, Avropa Parlamentinin üç deputatının Qarabağa çəkilməsi planlaşdırılan üçüncü yol barədə verdiyi bəyanat rəsmi İrəvanın tam diplomatik məğlubiyyətidir. Mən Avropa Parlamenti-Ermənistan parlament əməkdaşlığı üzrə komitəsinin keçmiş həmsədri kimi, həmin komitədən heç vaxt bu cür açıq-aşkar antierməni bəyanata rast gəlməmişdim. Hətta həmin komitənin sədrinin qatı azərbaycanpərəst mövqeyi ilə tanınan Sadjad Kərim olduğu vaxtlarda belə. Həmin bəyanatla bağlı Ermənistanda hakim çoxluğun siyasi komandasında hansısa başa düşülməyən və xaotik hərəkətlər müşahidə olunur, bu bəyanata görə günahkar axtarmağa çalışırlar. Amma həmin bəyanat diplomatik rüsvayçılıqdır, bizim bütün xarici siyasət korpusumuzun sərt məğlubiyyətidir. Bundan daha betər antierməni bəyanatı təsəvvür etmək çətindir".O qeyd edir ki, Ermənistan daxilində mövcud vəziyyət fonunda ölkəni yeni belə diplomatik məğlubiyyətlər gözləyir: "Ermənistan hakimiyyəti bunlarla məşğul olmaq əvəzinə diqqətini "Çiçəklənən Ermənistan" Partiyasının lideri Haqik Tsarukyana yönəldib. Halbuki, bu durumda Azərbaycan Qarabağla bağlı yeni həmlələrə hazırlaşır. Amma hakimiyyət bunu görə bilmir".

Əslində, ekspertlər də qeyd edir ki, Ermənistanda yaranmış və dərinləşəcəyi qaçılmaz görünən siyasi böhran Azərbaycanın maraqlarına uyğundur. Məsələ burasındadır ki, Ermənistanın sosial-iqtisadi sistemini və ictimai təhlükəsizliyini alt-üst edən koronavirus pandemiyası siyasi böhrana səbəb olub və baş verənlər ölkəni yaxın dövrdə yeni qarışıqlığın gözlədiyi versiyasını gücləndirir. Bu fonda Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Haqik Tsarukyanın evini mühasirəyə alması və onun həbsinə gedən hazırlıq siyasi böhranın daha da dərinləşməsinə rəvac verir. Baş verənlər Ermənistanda ictimai, siyasi və iqtisadi münasibətləri alt-üst edib. İqtidara əks cəbhədə olan bütün siyasi qüvvələrin parlament müxalifətinin çətiri altında toplanması təhlükəsi hər keçən gün artır. Bu durumda Nikol Paşinyanın ona qarşı olanları güc yolu ilə susdurmaq cəhdləri vəziyyəti daha da ağırlaşdırır. Bu durumda Ermənistan üçün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dilemma dərinləşir. Belə ki, Bakı danışıqların konkret nəticələrə gətirib çıxmasında israr edir, beynəlxalq ictimaiyyət də İrəvana ünvanlanan konkret tələblər irəli sürür. Avropa Parlamentinin işğal altındakı ərazilərə dair son bəyanatı bunun bariz nümunəsidir. Daxildə çətin durumda olan Ermənistan belə bəyanatlarln qarşısını almaq imkanları sürətlə tükənir. Bu halda Bakı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesində konkret nəticələrə doğru addımların atılması istiqamətində səylərini genişləndirir. Ermənistan hakimiyyəti də, müxalifəti də bu reallığı bilir. Amma bu vəziyyətdə onların Bakıya müqavimət imkanları da sıfıra bərabərdir. Belə vəziyyətdə Ermənistanın özündə etiraf edilir ki, Azərbaycan indi həm xaricdən Ermənistana qarşı təzyiqlərin artmasına və yeni sənədlərin qəbul olmasına çalışacaq, həm də hərbi müstəvidə təzyiqləri artıracaq. Bunu ukraynalı hərbi ekspert Oleq Jdanov da xüsusi olaraq vurğulayır. O qeyd edir ki, indiki halda Azərbaycan bütün istiqamətlər üzrə mühüm üstünlüklərə malikdir:"Qarşı tərəfdə isə vəziyyət fərqlidir. Ermənistan heç bir zaman suveren dövlət olmayıb. İrəvanın xarici siyasətini isə həmişə Moskva formalaşdırıb. Ermənistanda baş verən son hadisələri və Moskvanın tədricən İrəvandan üz döndərməsini nəzərə alsaq, bu gün Azərbaycan üçün tarixi şans yaranıb". Onun sözlərinə görə, Azərbaycanın Qarabağ məsələsini güc yolu ilə asanlıqla həll etmək imkanına sahib ordusu var:"Bakı bir hərbi əməliyyatla istədiyinə nail ola bilər. İndi yalnız Moskvanın müdaxiləsi ilə bağlı siyasi məsələləri həll etmək qalır. Ermənistan havadarlarının köməyinə ümid edirsə, Qarabağ münaqişəsinin həlli üçün Azərbaycana öz ordusundan başqa heç kim lazım deyil". O qeyd edib ki, hərbi tərəfdaşlara və əsgərlərin tədrisi ilə bağlı təcrübə mübadiləsinə malik olan Azərbaycan öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətini və ən çətin vəzifələrin yerinə yetirilməsinə hazırlığını daim artırır:"Hərbçilərin əsas şüarı var: təlimlər maksimum döyüş şəraitinə uyğun keçirilməlidir. Ən yaxşı təlimlər döyüş əməliyyatları ehtimal olunan yerlərdə aparılır. Azərbaycan Ordusu Qazaxıstan dağlarında da təlimlər keçirməyi planlaşdırır. Bu o deməkdir ki, Azərbaycan Ordusunun xüsusi təyinatlıları Dağlıq Qarabağ dağlarında maksimum səmərəli fəaliyyət göstərməyə və ərazilərin azad edilməsi ilə bağlı qarşıya qoyulmuş mühüm tapşırığı həll etməyə hazırdır". Belə bir vəziyyətdə işğalçı ölkənin indiki Qarabağ siyasətini davam etdirməsi isə mümkünsüz sayılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistanda 3 min koronavirus xəstəsinin adlı siyahısı açılıb - Azərbaycana "haker ittihamı"...

**Azərbaycanlı hakerlər 3500 ermənin koronavirusa yoluxduğu, həmçinin onlarla əlaqədə olanların siyahısı barədə məlumat yayıb. Bu barədə erməni KİV-i media mütəxəssisi Samvel Martirosyanın özünün Facebook səhifəsində yazdığına istinadən məlumat yayıb.**

***Nicat Qasımlı:** "Onlar daxili rəyi sakitləşdirmək üçün bu ittihamı bizim üzərimizə yönəldirlər"*



O, məlumatın hələ təsdiqlənmədiyini vurğulayıb, lakin yazıb ki, bu günə qədər hər şey kifayət qədər etibarlı görünür. Mütəxəssisin izah etdiyi kimi, haker Səhiyyə Nazirliyinin elektron poçtunun sındırıldığını elan edib:

"Ancaq haker hər şey deyə bilər. Xahiş edirəm, məndən heç bir siyahı istəməyin, çünki orda şəxsi məlumatlar var" .

O, hər halda fərdi məlumatların yayılmasının hər zaman təhlükəli olduğunu vurğulayıb. Media mütəxəssisi hansı məlumatların səhv əllərə düşdüyünü bilmədiyini deyib.

Ermənistan Təhlükəsizlik Nazirliyi əvvəlcə belə halın mükünsüzlüyünü bəyan edib. Bir gün sonra isə məlumatların kənara sızdığını təsdiqləyib və bu istiqamətdə zəruri araşdırmaların aparıldığını bildirib. Azərbaycana ünvanlanan bu haker ittihamını nə dərəcədə əsaslı saymaq olar?

İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə mütəxəssis, VR360.az şirkətinin direktoru Nicat Qasımlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu iddiasını əsaslı saymaq olmaz: "Həmin ölkə ilə biz müharibə şəraitində yaşayırıq. Müasir dünyada müharibə deyəndə eyni zamanda virtual aləmdə və İKT sahəsindəki bəzi hücumlar da nəzərdə tutulur. Sualınızın birinci hissəsinə cavab olaraq bildirirəm ki, Azərbaycanın deyilən sahədə olduqca ciddi mütəxəssisləri var və onlar Ermənistana istənilən sahədə dərs verməyə qadirdir. Ancaq inanmıram ki, belə xırda məlumatı əldə etmək bizim maraq dairəmizdə olsun. Ermənistanın özündə vəziyyət olduqca gərgindir. Daxili qruplar arasında amansız mübarizə gedir. Koronavirusla bağlı isə vəziyyət daha acınacaqlıdır. Paşinyanın özü etiraf edir ki, virusla bacara bilmirlər. Ermənistanda koronavirusla bağlı vəziyyətin nə dərəcədə acınacaqlı olduğu açıq polemikalarda qeyd olunur. Hətta onların mediasında hakimiyyətin real rəqəmləri gizlətdiyi də bəyan edilir, konkret rəqəmlər açıqlanır.

Görünür, adlarla bağlı konkret siyahını da hakimiyyətə müxalif olan daxili qruplar mediaya sızdırıb. Onlar daxili rəyi sakitləşdirmək üçün bu ittihamı bizim üzərimizə yönəldirlər. Həmin əməlin bizim hakerlər tərəfindən törədildiyini sübut edən heç bir konkret dəlil ortaya qoyulmayıb. Yalnız fərziyyə əsasında deyilənləri isə iddiadan başqa nəsə saymaq olmaz".

***Məhəmmədəli QƏRİBLİ***

# Tehranda Ermənistan bayrağı yandırıldı, erməni səfiri XİN-ə çağırdılar, İsraildə səfirlik məsələsi də Paşinyanın qəsdinə durub

**İran artıq açıq formada Ermənistanın İsraildə səfirlik açmasına etiraz edir. Belə ki, Tehranda Ermənistan səfirliyi qarşısında etiraz aksiyası keçirilib. Aksiya iştirakçıları Ermənistan bayrağını yandırıblar.**

***Ramil Hüseynov:** "Bu, Ermənistanın İranla olan siyasi münasibətlərinə mənfi təsir edəcək və nəticədə..."*




Etirazlara rəsmi İrəvanın tezliklə İsraildə Ermənistan səfirliyi açmaq bəyanatı səbəb olub. Aksiya zamanı onlarla İran vətəndaşı Ermənistanın Tehrandakı səfirliyinin qarşısına çıxaraq, İrəvanın bu hərəkətinə etiraz ediblər. İran vətəndaşları bəyan ediblər ki, İran hər zaman Ermənistanın ən ağır günündə qonşu ölkə kimi yanında olub, lakin İrəvanın İranın düşməni olan İsraildə səfirlik açması iki ölkə arasındakı münasibətlərə xələl gətirir və bu xəyanətdir.

Sözügedən aksiyadan sonra Ermənistan səfiri İran XİN-ə çağırılıb, burada İrəvanın İsraildə diplomatik nümayəndəlik açmaq planları ilə bağlı açıqlama verib. İran tərəfi Ermənistanın planlarından narazı olduğunu və bununla barışmaq istəmədiyini gizlətmir. Bəzi ekspertlərin fikrincə, İranın Bakıdakı səfirinin Dağlıq Qarabağın Azərbaycanlı icmasının sədri ilə görüşünü münasibətlərin soyumasının və İrəvana təzyiqin dolayı təsdiqi hesab etmək olar. Bu, İrəvanda İran tərəfin qeyri-dost addımı kimi qarşılanıb. Ermənistanda müşahidəçilər İranla münasibətlərin pisləşməsini Baş nazir Nikol Paşinyanın komandasının xarici siyasətdə uğursuzluğunun dəlili kimi qiymətləndirirlər.

"Paşinyanın bu addımı daha çox Qərbin xoşuna gəlmək məqsədi güdür"

Sözügedən məsələ ilə bağlı fikirlərini baki-xeber.com-la bölüşən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, İran tərəfi ilk vaxtlar Ermənistanın belə addım atacağını gözləmirdi: "Daha dəqiq desək, rəsmi Tehran güman edirdi ki, Ermənistan İsraildə səfirlik açmasını bəyan etsə də, proses yubanacaq və yaxud da hansısa mərhələdə təxirə düşəcək. Ancaq onların bu gözləntilərinin əksi baş verməkdədir ki, bu da İranı qıcıqlandırır. Məsələ ondadır ki, Paşinyan Qərbin maraqlarından çıxış edərək prosesi sürətləndirmək istəyir. O ümid edir ki, Ermənistanın bu addımı yəhudi lobbisinin onu dəstəkləməsinə kömək edəcək. Bunun sayəsində Ermənistana siyasi və iqtisadi dəstək veriləcək. Paşinyanın bu addımı daha çox Qərbin xoşuna gəlmək məqsədi güdür. Digər tərəfdən, Rusiyanın İsraillə münasibətləri normal olduğuna görə Kreml Ermənistanın bu addımına qarşı deyil. Ən başlıcası, Ermənistanın hakim dairələrində belə bir rəy var ki, ABŞ tərəfindən İrandakı rejimin devriləcəyi qaçılmazdır. Bu səbəbdən Ermənistanın hazırkı hakimiyyəti prosesləri qabaqlamaq istəyir. Təbii ki, Ermənistanın bu addımı İran tərəfindən xoş qarşılanmamaqla yanaşı, bu ölkə üçün nəqliyyat-kommunikasiya baxımından müəyyən çətinliklər yarada bilər. Yəni bu, Ermənistanın İranla olan siyasi münasibətlərinə mənfi təsir edəcək və nəticədə Tehran müəyyən iqtisadi təzyiq rıçaqlarını işə sala bilər. Ancaq İran buna görə Ermənistanı sərt cəzalandıracaqmı? Nədənsə, bu, real görünmür. Çünki rəsmi Tehran hər zaman öz maraqlarından çıxış edərək bu və ya digər formada işğalçı dövlətə yardımını əsirgəməyib. Bu baxımdan, İran hakimiyyətinin Ermənistan sevgisinin kəskin azalacağı inandırıcı görünmür. Məsələn, işğalçı Ermənistan Qarabağda İslam abidələrinə qarşı vandalizm siyasəti aparsa da, İran buna görə qarşı tərəfə hər hansı bir etiraz etməyib".

***Vidadi ORDAHALLI***

**Koronavirus pandemiyası əksər dünya ölkələrində sənaye istehsalının həcminə mənfi təsir göstərib. Yəni sənaye istehsalı azalıb. Ancaq Azərbaycanda azalma olmayıb. Belə ki, bu ilin yanvar-may aylarında ölkədə ümumi sənaye istehsalı 15,5 milyard manat (9.1 milyard dollar) təşkil edib ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0.4 faiz çoxdur.**

# Dünya sənayesi pandemiyadan çökdü, Azərbaycanda isə əksinə - 0,4 faiz artım, beş ayda...



## ***Rəsul Cahangirli:*** *"Son illər ölkədə aparılan islahatlar sənayenin bir sıra sahələrində inkişafa səbəb olub"*

Bu ilin ilk beş ayında Azərbaycanda qeyri-neft sənayesinin artımı 14 faiz təşkil edib. Sözügedən sahənin sənaye istehsalındakı xüsusi çəkisi 30 faizə yaxındır.

Sənaye məhsullarının 62 faizi mədənçıxarma, 31,6 faizi emal, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 3,1 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 15,5 faiz artıb. Emal sektorunda isə əczaçılıq məhsullarının istehsalı 3,1, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,3, metallurgiya sənayesi məhsullarının istehsalı 2,2 dəfə, kompyuter, elektron və optik məhsulların istehsalı 94,6, ağacın emalı və ağacdan məmulatların istehsalı 57,2, digər nəqliyyat vasitələrinin istehsalı 37,6, elektrik avadanlıqlarının istehsalı 26,5, tütün məmulatlarının istehsalı 26,1, kimya sənayesi məhsullarının istehsalı 24,6, kağız və karton istehsalı 15, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,6, geyim istehsalı 13, hazır metal məmulatlarının istehsalı 7,4, içkilərin istehsalı 2,9, neft məhsullarının istehsalı 2, poliqrafiya məhsullarının istehsalı 1,8, qida məhsullarının istehsalı 1,8, toxuculuq sənayesi məhsullarının istehsalı 1,6 faiz artıb.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 13, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 1,5 faiz artıb.

Göründüyü kimi, koronavirusun təsirlərinə baxmayaraq, bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycanda ümumi sənaye istehsalı bu ilin beş ayında azalmayıb. 2019-cu ilin 5 ayı ilə müqayisədə cüzü də olsa artıb. Ümumən bunu ekspertlər necə dəyərləndirirlər?

*"...pandemiya Azərbaycanda sənaye istehsalına kəskin mənfi təsir edə bilməyib"*

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirli pandemiyaya rəğmən, Azərbaycanda bu ilin 5 ayında sənaye istehsalının cüzi də olsa artmasını bir sıra faktorlarla əlaqələndirdi: "İqtisadiyyatın müasir inkişaf mərhələsi sənayeləşmə və onun modernləşməsilə xarakterizə olunur. Güclü iqtisadiyyatı inkişaf etmiş sənayesiz təsəvvür etmək olmaz. Davamlı inkişaf, əhalinin məşğulluğunun artırılması, ölkənin ixrac qabiliyyətinin yüksək səviyyədə saxlanması, elmin inkişaf etdirilməsi, idxaldan asılılığın azaldılması və s. məqsədlər baxımından sənayenin inkişaf etdirilməsi vacibdir. İnkişaf etmiş sənaye kənd təsərrüfatı istehsalının artırılmasına əsas yaradır. Ərzaq təhlükəsizliyini təmin edir, iqtisadiyyatın müxtəlif sahələrinin rəqabət qabiliyyətinin artırılmasına, xarici bazarlardan asılılığın azaldılmasına kömək edir.

Sadalanan mühüm cəhətlər son illər Azərbaycanda da sənayenin inkişaf etdirilməsi zərurətini yaradıb. Buna görə də son illərdə sənayedə tərəqqinin əldə edilməsinə, mədən sənayesi ilə bərabər qeyri-neft sənayesinin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılır.

Son illər ölkədə aparılan islahatlar sənayenin bir sıra sahələrində inkişafa səbəb olub. Azərbaycanda sənayenin inkişafında daxili investisiyaların payı yüksəkdir. Bütün bu və digər görülən işlərin nəticəsidir ki, pandemiya Azərbaycanda sənaye istehsalına kəskin mənfi təsir edə bilməyib. Cüzi də olsa artıma nail olmaq mümkün olub".

***Vidadi ORDAHALLI***

---

**Tarix boyu hər bir xalqın davamlı sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxaraq dövlətçilik ənənələri formalaşdırması milli lider amili ilə sıx bağlı olub. Bu günün özündə də dünyanın bir sıra nüfuzlu dövlətləri məhz öz liderlərinin müəyyənləşdirdikləri mütərəqqi strategiya əsasında irəliləyir, gələcək perspektivlərini bu uğur yolundan kənarda təsəvvür etmirlər.**

# Pandemiya dövrü üçün Azərbaycanda hansı sahələr gəlirlə işlədi...



## ***Rüfət Quliyev:*** *"Pandemiya dövründə qeyri-neft sektorunda artım müşahidə olundu"*

Xüsusilə hazırkı pandemiya dövründə ölkədə uğurla reallaşdırılan iqtisadi islahatlar, eləcə də sahibkarlığa dövlət dəstəyi tədbirləri davam etdirilir.

Danılmaz faktdır ki, dünya ölkələrinin əksəriyyəti son 6 ayda koronavirus pandemiyası qarşısında ciddi sosial-iqtisadi, tibbi, mənəvi-psixoloji problemlərlə üzləşib. Hətta onlar vəziyyətə nəzarəti itirdiyi bir zamanda Azərbaycan iqtisadi inkişaf tempini qoruyub saxlayıb, eləcə də ciddi sosial paketin reallaşdırılması dövlətimizin rəhbərinin müdrik və uzaqgörən siyasətinin nəticəsi kimi cəmiyyətdə yüksək qiymət alır. Son 3 ayda Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən onlayn beynəlxalq tədbirlərin nüfuzlu əcnəbi iştirakçıları, dövlət və hökumət başçıları, müxtəlif təşkilatların nümayəndələri respublikamızın bu sahədə keçirdiyi tədbirləri mütərəqqi, öyrənilməsi və tətbiqi zəruri olan model kimi dəyərləndirirlər. İqtisadi tənəzzül keçirən 150-dən çox ölkənin Beynəlxalq Valyuta Fondu və Dünya Bankına yardım üçün müraciət etdiyi bir dönəmdə Azərbaycanın digər dövlətlərə və qurumlara yardım göstərməsi mühüm uğurlar sırasında qeyd olunmalıdır.

Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 3,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketinin qəbulu cəmiyyətdə böyük razılıqla qarşılandı. Pandemiya dövründə kiçik, orta və iri sahibkarlıq subyektləri üçün ciddi güzəştlərin nəzərdə tutulması iş adamlarına dəyən zərərin kompensasiya edilməsi baxımından olduqca əhəmiyyətlidir. Eyni zamanda, pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən dəstəklənməsi, 300 minə yaxın mikro sahibkarın, ümumilikdə, 600 minə yaxın insanın dövlətdən maddi yardım alması ölkə rəhbərinin daim xalqın yanında olduğunun əyani təsdiqidir.

*"...neft ölkələrində iqtisadiyyatın daha çox zərər görməsini müşahidə etsək də, Azərbaycanda bu müşahidə olunmadı"*

Qeyd etdiyimiz kimi, pandemiya dövründə xarici ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatında artım qeydə alındı. Hansı sahələrdə artımın qeydə alındığını öyrənmək məqsədilə mütəxəssislərə müraciət etdik.

Millət vəkili Rüfət Quliyev qeyd etdi ki, koronavirus pandemiyası dövründə bütün ölkələrin iqtisadiyyatında geriləmə müşahidə olundu və bəzi inkişaf etmiş ölkələrin statistikasına nəzər salanda görürük ki, mənfi amillər özünü büruzə verdi: "Çox az sayda ölkə var ki, bu baxımdan iqtisadiyyatının dayanıqlı və davamlı olması üçün həyata keçirdikləri tədbirlər nəticəsində qlobal iqtisadi göstəricilərdə mənfi amillər olsa da, burada tamamilə fərqli bir mənzərə yaranıb. Belə ki, iqtisadi göstəricilərində müsbət hallar qeyd olunan ölkələrdən biri də Azərbaycandır.

Prezident İlham Əliyevin tapşırığı əsasında, koronavirus pandemiyası tüğyan etməyə başlayan zaman ölkəmizdə zəngin sosial paketin təqdim edilməsi ilə yanaşı, eyni zamanda, iqtisadiyyatın dayanıqlı və davamlı olması üçün də müxtəlif tədbirlər həyata keçirildi. Bunun nəticəsidir ki, ölkəmizdə iqtisadiyyatın fəaliyyəti pandemiya dövründə də uğurlu olub. Xüsusilə də koronavirus pandemiyası dövründə dünya enerji və səhm bazarlarında kəskin dalğalanmaların nəticəsi olaraq neftin qiymətinin düşməsinə baxmayaraq, qeyri-neft sektorunun ölkədə müsbət saldo ilə göstəriciləri oldu. Yəni ölkə iqtisadiyyatının vaxtında düzgün istiqamətlənməsi, düzgün qurulması ona gətirib çıxardı ki, məhz elə koronavirus pandemiyası dövründə neft ölkələrində iqtisadiyyatın daha çox zərər görməsini müşahidə etsək də, Azərbaycanda bu müşahidə olunmadı".

***Günel CƏLİLOVA***

# Xətai rayonu, Cavanşir küçəsindəki yataqxana köçkünlərinin Prezidentdən xahişləri - yaşayışımız əsl antisanitariyaya dönüb...

**Xətai rayonu, Cavanşir küçəsi 4 ünvanında yerləşən yataqxananın sakini Zemfira Əliyeva sosial şəbəkə vasitədilə "Bakı-Xəbər" qəzetinə və baki-xeber.com saytına müraciət edib.**



Yataqxanada vəziyyətin dözülməz olduğunu yazan Z.Əliyeva qeyd edir ki, bu müraciət 30-40 il yataqxanada dözülməz həyat şəraitindən əziyyət çəkən insanların SOS siqnalıdır.

"Hörmətli redaksiya!

Əslində, bu müraciətlə sizləri köməyə çağırıram. Bu yalnız mənim deyil, mənimlə birlikdə 30-40 il yataqxanada dözülməz həyat şəraitindən əziyyət çəkən insanların SOS siqnalıdır. Bilirsiniz ki, indiki pandemiya ilə əlaqədar dövlətimiz, ən başlıcası, hörmətli Prezidentimiz cənab İlham Əliyev millətimizi, hər bir kəsi bu bəladan qorumaq üçün müəyyən tapşırıqlar verib. Bu da ölkəmizdə sistematik olaraq həyata keçirilir. Diqqət çəkmək istədiyim əsas məsələ bunun necə və hansı yollarla mümkün olması üzərində dayanır. Daha doğrusu, bu halda, bildiyiniz karantin rejiminə və gigiyena qaydalarına yataqxanamızda necə əməl olunmasıdır. İnanın ki, sosial problemlərin baş alıb getdiyi indiki dönəmdə bu mümkünsüzdür.

Çünkü həm istismar müddəti bitmiş, həm də divarları nəmişlikdən göyərmiş, zirzəmisi ağzına qədər su və gəmiricilərlə dolmuş yataqxana binası əsl virus mənbəyinə çevrilib. İzolə olunmayan - yaşlı insanlar, azyaşlı uşaqlar hər gün eyni mətbəx və sanuzellərdən istifadə edir, hər gün də evdən çıxaraq kim bilir nə qədər insanı bu virusa yoluxdurur. Dəfələrlə icra qurumlarına müvafiq tədbirlərin görülməsi barədə şifahi və yazılı müraciət etməyimizə baxmayaraq, bu məsələyə səthi yanaşılır.

İki il öncə dövlətimiz məcburi köçkünlərin, ilk növbədə, qəzalı binalardan köçürülməsi planını həyata keçirib , yataqxanamızda köçkün kimi məskunlaşmış 63 ailə "Qobu Park "-1 yaşayış kompleksinə köçürülüb. Əsl faciə də bundan sonra başlayıb ki, köçkünlərdən çox əvvəl yataqxanada yaşayan insanların üstündən sanki qara xətt çəkmişlər. Sual doğur: bəs köçürülmədən sonra yaşamağa davam edən 30 ailə Azərbaycan vətəndaşları deyil? Dözülməz həyat şəraitindən əziyyət çəkən bu insanların da dövlətimizin qayğısına ehtiyacı var və bizlərin də mənzillə təmin olunması üçün lazımi tədbirlərin görülməsinə ümid edirik" - deyə qeyd edən Z.Əliyeva qarşılaşdıqları problemlə bağlı "Bakı-Xəbər" vasitəsilə səslərinin Prezident İlham Əliyevə çatdırılmasını xahiş edir.

**"Ən əsası da hörmətli Prezidentimizin öz çıxışlarında qeyd etdiyi nöqsanların, boşluqların aradan qaldırılmasına köməklik göstərin" - deyə Z.Əliyeva müraciətində vurğulayır.**

***İradə SARIYEVA***

# Həftəsonu sərt karantindən sui-istifadə - beşinci gündən kütləvi olaraq rayonlara köç başlayır

**Məlum olduğu kimi, son iki həftənin şənbə və bazar günləri, paytaxt Bakı da daxil olmaqla, ölkənin bir neçə şəhərində sərt karantin qaydaları tətbiq olunub. Konkret olaraq, həmin şəhərlərdə əhalinin evdən çıxmağı qadağan olunub. Ancaq ölkənin paytaxta yaxın olan bəzi səfalı rayonlarında karantin tətbiq edilməyib.**

## *Rasim Quliyev: "Vətənimizi, özümüzü bəladan qorumaq üçün dövlətin müəyyən etdiyi qaydalara maksimum əməl etməliyik"*

Bu da bəzi vətəndaşların sui-istifadə hallarına yol açıb. Sosial şəbəkələrdə yayılan videolardan görünür ki, 5-ci gündən balayaraq rayonlara gedən yollarda uzun tıxaclar yaranır. Eyni halı biz karantinin ləğv edildiyi gün paytaxta girişdə də görürük. Mütəxəssislər deyir ki, karantin zonası elan olunan Bakıdan əhalinin digər rayonlara kütləvi axını vəziyyəti daha da pisləşdirə, yoluxma hallarını artıra bilər. Bəs vəziyyətdən çıxış yolu nədədir? Bunun qarşısını almaq üçün həftəsonu bütün ölkəboyu karantin elan edilə və ya paytaxt qeydiyyatında olan vətəndaların rayonlara buraxılmasını qadağan etmək olarmı?

Koronavirus pandemiyası ilə bağlı ciddi aradırmalar aparan "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələ onun özünü də dərindən düşündürür:"Bunun qarısını almağın iki metodu var. Ya sırf inzibati, ya da insanların özü məsələyə şüurlu şəkildə yanaşıb, qanun-qaydaya əməl etməlidir. Düzünü deyim ki, mən xalqımıza onlarla sırf inzibati metodların tətbiqi kimi rəftarın olunmasının tərəfdarı deyiləm. Bütün ölkə boyu sərt karantinin tətbiqi isə əlavə problemlərə də səbəb ola bilər. Hazırda rayonların çoxunda mövsumi kənd təssərüfatı işlərinin ən qızğın zamanıdır. İnsanlar qidalanmalıdır, yemək yeməlidir. Kəndçi öz malqarasını saxlamaq üçün qış azuqəsini yığmalıdır. Torpaq əkilməlidir ki, kənd təsərrüfatı inkişaf etsin. Bu baxımdan da ehtiyac olmayan rayonlara belə qadağanın tətbiqinin tərəfdarı deyiləm. Düşünürəm ki, insanlar arasında lazımi maarifləndirmə işləri aparsaq irəliləyiş əldə edə bilərik. Vətəndaşların şüurlu yanaşması ilə problemin öhdəsindən gələ bilərik. Biz qoruyucu maskanı insanlara



zorla geyindirirksə, deməli, insanlar canının qədrini bilmək istəmir. Epidemioloji vəiyyətin idarə olunmasında lokallaşma üsulundan istifadə oluna bilər. Qaynar ocaqların neytrallaşdırılması istiqamətində müəyyən işlər görülə bilər. Ancaq yenə deyirəm, bunu elə şəkildə etməliyik ki, kənd təsərrüfatına ziyan dəyməsin. Vətəndaşlarımız real vəziyyəti düzgün qiymətləndirməlidir. İki günlük istirahətə görə özlərinin və başqa insanların həyatını təhlükəyə atmamalıdır.

Biz yazma-oxuma bilməyən ölkə deyilik. Bütün vətəndaşlarımızdan şüurlu davranış tələb olunmalıdır. Dünyanın bütün ölkələrində ikinci dalğa gəlir. Biz bunu ölənlərin və yoluxanların sayındakı artımda görürük. Problem burdadır ki, bizim vətəndaşlarımızda qanunlara yanaşmada bir qədər səhlənkarlıq var. Vətənimizi, özümüzü bəladan qorumaq üçün dövlətin müəyyən etdiyi qaydalara maksimum əməl etməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

# Tranzit yüklərin artımı Azərbaycana valyuta axınına yeni təkan verir

**Dünya enerji bazarlarında karbohidrogen resurslarının tez-tez dəyişən qiyməti indi bir çox neft və qaz hasilatçılarının gəlirlərində ciddi çətinlik yaradıb. Elə bu səbəbdəndir ki, onlar gəlirlərin sabitliyini təmin etmək üçün müxtəlif yollar axtarır.**

Amma koronavirus pandemiyasının tüğyan etdiyi indiki şəraitdə bu olduqca müşkül xarakter daşıyır.

Yaranmış vəziyyət neft-qaz istehsalçısı kimi Azərbaycana da təsirsiz ötüşmür. Amma ölkəmizin əsas üstünlüyü hələ pandemiyadan xeyli əvvəl iqtisadiyyatın deversifikasiyası istiqamətində mühüm addımlar atması olmuşdu. İndi Azərbaycanda iqtisadi artım əsas etibarı ilə qeyri-neft sektoru hesabına reallaşır. Bu xüsusda tranzit yükdaşımaların artımı indi Azərbaycana valyuta qazandıran əsas sahələrdən birinə çevrilib. Hazırda müşahidə edilən Azərbaycan üzərindən daşınan beynəlxalq yükdaşılmaların həcminin dinamik artımıdır. Ölkəmizdə qurulan nəqliyyat infrastrukturu Azərbaycanın regional nəqliyyat dəhlizində daha aktiv şəkildə iştirakına zəmin yaradır. Bu, bir tərəfdən Azərbaycan üzərindən daşınan yüklərin həcminin artırılmasına təkan verir, digər tərəfdən Azərbaycanda istehsal edilən qeyri-neft məhsullarının Asiya və Avropa bazarına daha qısa zamanda çatdırlmasını reallaşdırmağa əlavə imkanlar yaradır.

Yaranmış durumda ən önəmli addımlardan biri də Ələt Azad İqtisadi Zonasının yaradılmasıdır. Qeyd edilən məsələ indi xarici sərmayədarların diqqətini daha çox Azərbaycana yönəldir. Qeyd edək ki, ötən ay Prezident İlham Əliyev "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərman imzalayıb. Fərmana əsasən, Azad Zona və Azad Zonanın səlahiyyətli qurumu yaradılıb. Qaradağ rayonunun inzibati ərazisində yerləşən torpaqlar Ələt azad iqtisadi zonasının ərazisi qisimində müəyyən edilib. Ümumiyyətlə, hesab edilir ki, Ələt Azad İqtisadi Zonasının yaradılması ilk növbədə dəmir yolu ilə yükdaşımaların inkişafına müsbət təsir edəcək. Belə zona həm də Bakı-Tiflis-Qars dəmir yolunu bir qədər də cəlbedici edir. Çünki həmin zona "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməklə Xəzər hövzəsində ən böyük logistika mərkəzi olaraq fəaliyyət göstərəcək. Yaxın gələcəkdə zona Avropa, Türkiyə, İran, Rusiya, Çin, Orta Asiya, Yaxın Şərq dövlətləri üçün Bakı Beynəlxalq Dəniz Ticarət Limanının iqtisadi əhəmiyyətini daha da artıracaq. Beləliklə, yeni Bakı limanı Avrasiyanın ən əsas nəqliyyat qovşaqlarından birinə çevriləcək. Burada xatırladaq ki, son illər ərzində Çindən Avropa istiqamətində artan yükdaşımaların mühüm hissəsi Qazaxıstan dəmir yolları vasitəsilə həyata keçirilir. Mərkəzi Asiya və Əfqanıstandan Avropa istiqamətində olan nəqliyyat marşrutu isə Türkmənistandan keçir. Qazaxıstan və Türkmənistan son illər ərzində iri infrastruktur layihələri həyata keçirib. Regionda həcmi artan yüklərin bir qisimi Qazaxıstanda yeni inşa edilən Kurık və yenidən qurulan Aktau limanlarından, digər hissəsi isə Türkmənistanın yenilənmiş Türkmənbaşı limanından bərələr və gəmilər vasitəsilə yeni Bakı limanına çatdırılacaq və daha sonra Bakı-Tiflis-Qars dəmir yolu vasitəsilə Avropaya nəql ediləcək. Türkiyə tərəfindən Bosfor boğazında dəmir yolu xəttinin istifadəyə verilməsi ilə Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsi də Bakı-Tiflis-Qars dəmir yolunun və Ələt Azad iqtisadi Zonasının əhəmiyyətini artırır. Bununla da, yüklərin Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçirməklə Avropa və Asiyaya çatdırılması təmin olunacaq. Ələt azad iqtisadi zonasının fəaliyyəti Çin, Hindistan, İran, Rusiya və Mərkəzi Asiya regionu ilə Türkiyə və Qərb dövlətləri arasında ticarətin inkişafında və daha da sürətləndirilməsində böyük rol oynayacaq. Bütün bunlar Azərbaycanda qeyri-neft sektorunun inkişafı və milli iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatların mühüm müsbət nəticələri kimi də qiymətləndirilə bilər. Bəzi rəqəmlərə nəzər yetirməklə də Azərbaycanın logistika mərkəzinə çevrildiyini və neftdən asılı olmayaraq tranzit gəlirlər əldə etdiyini görmək oalr. Məsələn, İranın Kənd Təsərrüfatı Nazirliyinin meyvəçilik şöbəsinin müdiri Zəhra Cəlili bildirib ki, cari ilin ilk rübündə Rusiya və MDB-yə daxil olan digər ölkələrə 500 milyon dollar həcmində subtropik meyvə ixrac edilib. Həmin nazirliyin gülçülük şöbəsinin müdiri Cahid Qulamrza isə qeyd edib ki, İrandan Rusiya, Azərbaycan və digər MDB ölkələrinə 40 milyon dollar həcmində dekorativ ağaclar və gül ixrac edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 45 faiz çoxdur. Bu artımın əsas səbəbi Azərbaycanda qeyri-neft sektoru sahəsində aparılan islahatlardır. Azərbaycanda nəqliyyat infrastrukturunun yenilənməsi və gömrük-keçid məntəqələrinin işinin təkmilləşdirilməsi ölkəmiz üzərindən tranzit yüklərin daşınmasının artmasına səbəb olub ki, bu da dövlət büdcəsinə əlavə valyuta axınını təmin edib. İslahatlar çərçivəsində Ələt-Astara magistral yolunun və Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu xəttinin çəkilməsini qeyd etmək lazımdır. Məhz bu infrastruktur layihələrinin həyata vəsiqə almasından sonra İranın ixrac potensialı və bununla yanaşı Azərbaycanın tranzit gəlirləri artıb. Bir daha xatırladaq ki, Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu Qəzvin-Rəşt-Astara yolunun davamıdır. Bu yolun Qəzvin-Rəşt hissəsi istismara verilib. Rəşt-Astara hissəsində isə işlər davam edir. "Şimal-Cənub" dəhlizinə daxil olan dəmir yolu tam istifadəyə verildikdən sonra isə yalnız İran deyil, eləcə də Cənub-Şərqi Asiya ölkələri Avropa ilə ticarət əlaqələrini Azərbaycan üzərindən həyata keçirəcək ki, bu da ölkəmizin tranzit gəlirlərini 5 dəfə artıracaq.



"Şimal-Cənub" dəhlizi ilə ölkəmizə daxil olan yüklərin təxminən 85 faizi tranzit olaraq digər ölkələrə aparılır. Nəticə etibarilə ölkəmizdən nə qədər çox yük daşınırsa, bu da ölkəmizin gəlirlərini artırır. Digər tərəfdən bu layihə ölkəmizin ixrac imkanlarını da artırır və xüsusən qeyri-neft sektorunda ixrac imkanlarını genişləndirir. Bunun pandemiya dönəmində qeydə alnması isə Azərbaycanın sabit iqtisadi inkişafının bundan sonra da uğurla davam edəcəyini göstərir.

***Ramil QULİYEV***

# Virusdan vəfat edənlər arasında 65-dən yuxarı yaşlılarımız üstünlük təşkil edir - köhnə qadağa yenidən tətbiq oluna bilərmi...

**İlk olaraq Çində aşkarlanan və sonra ABŞ, İspaniya, İran, İtaliya, Fransa başda olmaqla, bir-birindən fərqli ölkələrə yayılan koronavirusa yoluxanların sayı saatbasaat artır.**




Sevindirici haldır ki, ölkəmizdə görülən operativ tədbirlər nəticəsində koronavirusdan əziyyət çəkənlərin sayı qonşu ölkələrlə müqayisədə azdır. Açıqlanan məlumatlara görə, koronavirusdan vəfat edənlər arasında yaşlı nəslin nümayəndələri çoxdur. Vəfat edənlər arasında 60-69 yaş qrupunda olanlar əksəriyyəti təşkil edir.

## *Azər Badamov: "Karantin rejimində hansı məhdudiyyətlərin yenidən tətbiq olunacağını zaman göstərəcək"*

Məlumdur ki, son günlər ölkə ərazisində gündəlik koronavirusa yoluxanların sayı 300-ü keçib. Elə bu səbəbdən karantin rejimində yenidən sərtləşmə tətbiq edilib. Hətta həftə sonlarında insanların çölə çıxmasına qadağa qoyulur. Maraqlıdır, 65 yaşdan yuxarı insanların yenidən çölə çıxmasına qadağa qoyula bilərmi?

Bununla bağlı danışan millət vəkili Azər Badamov bildirdi ki,karantin rejimində hansı məhdudiyyətlərin yenidən tətbiq olunacağını zaman göstərəcək: "Amma son günlərin yoluxması yüksəkdir. Ola bilsin ki, bir neçə gündən sonra infeksiyaya yoluxmalar sürətlə aşağı ensin və karantin rejimində daha çox yumşalma həyata keçirilsin. Həm də bunun tamamilə əksi də ola bilər. Yəni gündəlik yoluxmaların dinamikasında sürətli artım müşahidə olunsun və yenidən daha sərt karantin rejimi gündəmə gəlsin. Hər şey insanların əlindədir. Biz üzərimizə düşən sosial məsuliyyətimizi dərk edərək, qərargahın tələb və tövsiyələrini icra etsək, heç bir məhdudiyyətə ehtiyac qalmaycaq".

> *"Biz üzərimizə düşən sosial məsuliyyətimizi dərk edərək, qərargahın tələb və tövsiyələrini icra etsək, heç bir məhdudiyyətə ehtiyac qalmayacaq"*

***Günel CƏLİLOVA***

# Bakı - İstanbul reysi ilə uçmaq istəyənlər üçün koronavirus testindən keçmək proseduru...

**Məlum olduğu kimi, AZAL 17 və 18 iyun tarixlərində Bakı-İstanbul-Bakı istiqamətində xüsusi reyslər yerinə yetirəcək. Qeyd edək ki, uçuş zamanı qeydiyyat masasında COVID-19-a dair neqativ nəticə barədə arayış təqdim edilməlidir.**



Qeyd edək ki, Bakıdan uçuş zamanı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən akkreditə olunmuş xüsusi laboratoriyaların verdiyi arayışlar etibarlı hesab olunur.

Hər iki halda test reysin uçuşundan ən gec 48 saat əvvəl verilməlidir. Onu da bildirək ki, İstanbul-Bakı reysinə yalnız Azərbaycan vətəndaşları buraxılacaq.

Maraqlıdır, Bakı -İstanbul təyyarə reysinə düşmək üçün koronovirus testindən keçmək proseduru hansı formada həyata keçirilir?

## *Adil Qeybulla: "COVİD-19 pasportu beynəlxalq təcrübədə tətbiq olunan bir sistemdir"*

Qeyd etdiyimiz kimi, Bakıdan olan uçuş üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) akkreditasiya etdiyi laboratoriyada uçuşa 48 saatdan gec olmayaraq COVID-19 testi etdirib və nəticəsi neqativ çıxan sərnişinlər, İstanbul-Bakı reysində isə "Memorial" xəstəxanasında test olunub nəticəsi neqativ çıxanlar buraxılacaq. Bu halda, Bakıya çatandan sonra karantinə yerləşdirmə nəzərdə tutulmur. Amma simptomları nəzərə çarpan sərnişinlər əlavə müayinəyə götürüləcəklər.

Professor, həkim-ekspert Adil Qeybulla qeyd etdi ki, beynəlxalq praktikada tətbiq olunan təcrübələrdən biri də COVID-19 pasportunun tətbiq olunmasıdır. Bu o deməkdir ki, səyahətdən öncəki son günlərdə koronavirusa görə müayinə tətbiq olunur, neqativ nəticə və COVID-19 pasportunda sağlamlıqla bağlı xüsusi arayış qeyd edilir.

**Həmsöhbətimiz onu da əlavə etdi ki, aviaşirkətin və hava limanının əməkdaşları, öz növbələrində, uçuşun maksimum rahat və təhlükəsiz keçməsi üçün onlardan asılı olan bütün tədbirləri görəcəklər və sərnişinlərə yalnız qəti zərurət olduqda təyyarə ilə səyahət etməyi tövsiyə edirlər: "COVID-19 pasportu beynəlxalq təcrübədə tətbiq olunan bir sistemdir. Avropada ilk olaraq bu sistemdən istifadəni Xorvatiyanın Turizm naziri Gari Cappelli təklif edib. COVID-19 pasportunda koronavirus testinin nəticəsi, keçirilmə tarixi və sağlamlıq haqqında arayışın qeyd olunması nəzərdə tutulur".**

> *"COVİD-19 pasportunda koronavirus testinin nəticəsi, keçirilmə tarixi və sağlamlıq haqqında arayışın qeyd olunması nəzərdə tutulur"*

***Günel CƏLİLOVA***

# Lerikin hələ də işığa həsrət kəndləri...




**Dövlət başçısının bütün səmərəli fəaliyyəti yalnız Azərbaycan vətəndaşının xoş, firavan həyatına hesablanır.**

O, yorulmadan çalışır ki, heç bir sosial problem insanları narahat etməsin. Odur ki, xalq Prezidentini sevir, ona ürəkdən inanır, hər işdə öz etibarlı rəhbərinə dayaq durur.

Amma təəssüf ki, respublikada ölkənin tərəqqisini ciblərinə qurban verən məmurlar da çoxdur. Elə dağlar diyarı Lerik rayonunda da başda duran məmurlar xalqı çoxdan unudublar. İndiyə qədər olmayıb ki, icra başçısı durub insanların sadə bir probleminə əncam çəksin. Bunun nəticəsidir ki, Lerik kəndlisi ağır günlər yaşayır. Hətta torpağını əkib-becərməyə. texnika bir yana qalsın, öküz belə tapa bilmir...

Lerikin çox kəndində günlərlə işıq olmur. Bir balaca külək əsəndə, yaxud yağış yağanda həftələrlə işıqlar kəsilir. Kəndlərin içində çürümüş elektrik dirəkləri, sallanmış məftillər hər an insan həyatı üçün təhlükəlidir. Rayonun Hamarat kəndi ərazisində bu sırada vəziyyət daha ağırdır. Kəndlərdə işıqların teztez sönməsi, rayonun icra başçısı başda olmaqla, bu işə məhsul bütün şəxslərə məlumdur. Amma sıradan bir problemin aradan qaldırmasına səy göstərilmir.

Bununla belə, Lerikin sadə camaatı inanır ki, bir gün ölkə başçısı rayondakı rüşvətxor məmurların da "çırağını söndürüb", qaranlıq girdabına düşən kəndləri işıqlı günə çıxaracaq.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Məşhurların yas yerlərində kütləvi karantin qayda pozuntularına daha çox rast gəlinir...

## Aydın Xan Əbilov: "Əlbəttə, tanınmış insanların ailə üzvləri özləri bu məsələdə xüsusi nümunə olmalıdırlar"

**Məlum olduğu kimi, ölkəmizdə pandemiyaya yoluxma hallarının azaldılması üçün toy, nişan, xınayaxdı, ad günü şənlikləri, ümumiyyətlə, qadağan olunub, yas mərasimlərində isə 10 nəfərdən çox olmayaraq insanın iştirakına icazə verilib. Çox təəssüf ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın verdiyi bu qərarın icrasına bəzi vətəndaşlar laqeyd yanaşırlar.**

Ümumiyyətlə, bütün vətəndaşların riayət etməli olduğu bu qaydanı əksər halda tanınmış şəxslər və onların ailə üzvləri pozurlar. Tanınmış sənətkarların dəfn mərasimlərində kütləviliyin təmin olunduğunun şahidi oluruq. Pandemiya dövründə vəfat edən populyar şəxslərin dəfn mərasiminə yalnız ailə üzvləri deyil, ictimaiyyət də qatılır.

Məsələn, pandemiyanın ilk dövrlərində dünyasını dəyişən Xalq artisti Rəfael Dadaşovun dəfn mərasimində yaşanan kütləvilik bu günlərdə koronavirusdan həyatını itirən 82 yaşlı Xalq artisti Teymur Mustafayevin də dəfn mərasimində yaşanıb.

Halbuki, koronavirusdan vəfat edən şəxsin dəfn mərasimi dövlətin müvafiq qurumları tərəfindən xüsusi qayda ilə həyata keçirilir. Amma Xalq artisti Teymur Mustafayevin dəfn mərasimi belə təşkil edilmədi. Koronavirusdan vəfat edən T.Mustafayevin Cəlilabad rayonunda dəfn olunduğu məlumdur. Onu da bildirək ki, sosial şəbəkələrdə mərhumun dəfn mərasimindən paylaşılan fotoda 10-dan çox şəxsin iştirak etdiyi görünür. Sözügedən mənzərə müzakirələrə səbəb olub.

Bu barədə dəfn mərasimində iştirak edən Əməkdar artist Yusif Mustafayev mətbuata bildirib ki, dəfndə sosial məsafəyə diqqət edilib, çox adam yox, hardasa 50 nəfər iştirak edib.

Y.Mustafayev koronavirusdan dünyasını dəyişən xanəndənin ənənəvi qaydada dəfn edildiyini söyləyib: "Heç yas mərasimi olmadı, ancaq dəfn etdik, evə gəldik. Torpağa tapşırılması da ənənəvi qaydada oldu. Bizə belə dedilər. Molla dua oxudu, dəfn etdik. Yasda məndən başqa heç bir incəsənət üzvü iştirak etmədi".

Qeyd edək ki, bəzi saytlar yas yerində 80 nəfərin iştirak etdiyini, burada sosial məsafənin gözlənilmədiyini, hətta buna görə 5 nəfər mərasim iştirakçısının cərimələndiyini yazırlar.

Ümumiyyətlə, populyar adamların ailə üzvləri dəfn mərasimlərini təşkil edərkən vəziyyətlə əlaqədar olaraq nümunə göstərməli, kütləviliyə qarşı çıxmalıdırlar. Amma təəssüf ki, biz bunları görə bilmirik.

Məsələ ilə bağlı İNK baş katibi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov "Bakı-Xəbər"ə bildirdi ki, pandemiya, bütün dünyada olduğu kimi, Azərbaycanda da yeni yaşam tərzi diqtə edir. "Biz artıq yeni dövrün tələbinə uyğun yaşamalı, adət-ənənələrimizi buna uyğunlaşdırmalıyıq. Görürük ki, nəinki yas mərasimləri, eləcə də icazə verilməsə belə, nişan-toy mərasimlərinin də daha çox insanın iştirakı ilə keçirilməsinə səylər göstərilir. Bu da qanunvericiliyn, bir neçə normativ aktın pozulması deməkdir. Bilirsiniz ki, karantin dövründə həm Operativ Qərargah qərar verdi, sonra isə qanunvericilikdə dəyişiklik edilərək 10 nəfərdən artıq insanın bir yerə toplaşması ilə bağlı qadağa qüvvəyə mindi. Digər tərəfdən, yas, toy və digər mərasimlərin mövcud qaydalara uyğun təşkil edilməsi mümkündür. Yəni qanunvericilik on nəfərdən artıq insanın bir yerə toplanmasını qadağan edirsə, yas mərasimlərinin yalnız ailə üzvlərinin iştirakı ilə keçirilməsini tənzimləyir. Bu qanun varsa və Operativ Qərargah da elan edirsə ki, dəfn mərasimində iştirak etmək istəyənlər DİN-dən SMS-lə müvafiq icazə almalıdır, bu o demək deyil ki, minlərlə insan yas yerində iştirak etmək üçün icazə almalıdır. On nəfərdən artıq toplanmaya icazə verilmirsə, onda insanlar bu qadağanı nəzərə almalıdırlar. Bizim həyata keçirdiyimiz monitorinqlər və təcrübə göstərir ki, Azərbaycanda koronavirus daha çox toy, yas və şənliklərdə, insanların daha çox toplaşdıqları məkanlarda baş verir. Bizim insanlar bu mərasimlərdə bir-birilə qucaqlaşır, öpüşür, sosial məsafə saxlamır, maskadan isə istifadə etmirlər. Maskasız yas mərasiminə gedən qadınlar bir-birilə qucaqlaşıb öpüşdüyü, yaxın təmasda olduqları üçün, bir neçə rayonda koronavirus geniş yayılıb. Dünyada insanlar maska taxır, sosial məsafəni qoruyur, bütün etik normalara, qaydalara riayət etsələr də, Azərbaycanda təəssüf ki, belə deyil. Azərbaycan insanı düşünür ki, qucaqlaşıb görüşməsələr, yaxın təmas qurmasalar, bu, soyuqluq kimi qəbul ediləcək. Bu zaman çox isti, hərarətli görüşmənin şahidi oluruq. Xüsusən də bunu mərasimlərdə müşahidə edirik. İnsanlarımız bundan qaçmalıdırlar. Tanınmış insanların dəfn mərasimlərində 10 nəfərdən artıq insanın iştirakına gəlincə, bir neçə gün əvvəl dünyasını dəyişən Teymir əminin də, ondan əvvəl vəfat edən Rəfael Dadaşovun da dəfn mərasimində 10-dan artıq insanın iştirak etdiyinin şahidi olmuşuq. Çox təəssüf ki, pandemiya dövründə vəfat edən populyar şəxslərin dəfn mərasimində çoxlu sayda insanın iştirakı, hətta bunun jurnalistlər tərəfindən çəkilərək sosial mediada və digər yerlərdə yayılması həm qanunvericiliyin, həm də karantin rejiminin pozulması baxımından qəbuledilməzdir. Əlbəttə, tanınmış insanların ailə üzvləri özləri bu məsələdə xüsusi nümunə olmalı və bunu sadə insanlara da göstərməlidirlər. Sadə insanlar görsünlər ki, populyar adamların dəfn mərasimlərində ailə üzvlərindən və molladan başqa heç kəs iştirak etmir, bu halda onlar da dəfn mərasimlərini bu cür keçirəcəklər.

**Yəni dəfn mərasimində onlarla insanın iştirakına yol verməyəcəklər" - deyə A.X.Əbilovun sözlərinə görə, yas mərasimində kütləvilik yığışdırılmalıdır. "Operativ Qərargahın qərarı varsa, biz ictimai xadimlər də, tanınmış insanlar da bu qərara uyğun yeni yaşam tərzinə uyğunlaşmalı, mərasimlərimizi bu qərara uyğun təşkil etməliyik. Biz yeni dünyagörüşü, yeni həyat tərzi formalaşdıraraq xalqımıza təqdim etməliyik ki, xalq da bundan istifadə etsin. Yoxsa, günügündən epidemiya geniş vüsət alacaq və dünya bizə qeyri-ciddi bir xalq kimi baxacaq" - deyə A.X.Əbilov vurğuladı.**

*İradə SARIYEVA*



"...həm qanunvericiliyin, həm də karantin rejiminin pozulması baxımından qəbuledilməzdir"

№ 95 (4226) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

17 İYUN 2020-ci il

www.baki-xeber.com



# Bu ərzaqlar koronavirusa yoluxmaqdan qoruyur...

**İspaniyanın Pulmonologiya və Torakal Cərrahiyyə Cəmiyyətinin (SEPAR) rəhbəri Eusebi Çiner və dietoloq Alexandro Kanovas ağciyərləri koronavirusdan qorumağa yardım edən ərzaqlar barədə məlumat veriblər.**

"Baku.ws" xəbər verir ki, ispan mütəxəssislər bu barədə "La Vanguardia"ya müsahibə zamanı danışıblar. Alexandro Kanovas hesab edir ki, yumurta, düyü, mavi balıq və qoz tənəffüs sistemini gücləndirməyə kömək edir. Eusebi Çinerin sözlərinə görə, ağciyərin vəziyyəti pisləşdikdə bədənin zülala ehtiyacı artır. Xüsusilə yumurtalarda A vitamini kimi yağda həll olunan vitaminlər, eləcə də yüksək keyfiyyətli zülallar var. Bundan əlavə, pomidor, bütün süd məhsulları və içməli su ağciyərə müsbət təsir göstərir.

Pomidor antioksidan olaraq tənəffüs problemlərinin qarşısını almağa kömək edən C vitamininin mənbəyi hesab olunur. Sağlam həyat tərzinə əməl olunsa, virus səbəbilə ağciyərin zədələnməsinin əksər hallarının nəticələri minimuma endirilə bilər. Düzgün bəslənmədən əlavə, yuxu rejiminə riayət etməli və fiziki fəaliyyət göstərmək lazımdır.

## Koronavirus təhlükəsinin daha bir sirri aşkara çıxarıldı

**Kembric Universitetinin alimləri koronavirusda insan zülalının bir hissəsi ilə identik olan əlavə tapıblar. O, virusun insan bədəninə daxilolma ehtimalını təyin edən genom hissəsində yerləşir.**

"Oxu.az" bildirir ki, alimlərin araşdırması "eLife" elmi jurnalının saytında dərc edilib. Süni intellektdən istifadə edərək, mütəxəssislər SARS-CoV-2-nin genetik ardıcıllığında vacib insan zülallarından birində eyni fraqmentə bənzəyən səkkiz aminturşuya oxşarlıq tapıblar. Qeyd edilir ki, bu zülalın tənəffüs yollarının səthindəki aktivliyi maye reabsorbsiyasının pozulmasına səbəb olur. Ağır COVID-19 xəstələrində məhz bu patologiya müşahidə edilib.

Rusiyalı genetik Konstantin Krutovski bildirib ki, SARS-CoV-2-də insan zülalının bir hissəsinin meydana gəlməsi təsadüfi mutasiya ola bilər, baxmayaraq ki, belə ehtimal azdır. Bundan əlavə, o, koronavirusun aralıq sahibinin ola biləcəyini və ya insan hüceyrələrində laboratoriya şəraitində yetişdirilə biləcəyini etiraf edib. Mütəxəssis onun süni mənşəli olması ehtimalını da istisna etməyib.

## Koronavirusdan qorunmaq üçün xüsusi köynək hazırlandı

**Yaponiya alimləri tibb işçilərinin koronavirus xəstələrinin vəziyyətinə uzaqdan nəzarət edə biləcək bir köynək hazırlayıblar.**

"Lent.az" xəbər verir ki, "ağıllı köynəyi" "Mitsufuji" şirkəti istehsal edib. Yeni texnologiya sayəsində ürək döyüntüsü ölçülə bilər, nəfəs və sağlamlıqla bağlı digər göstəriciləri müəyyənləşdirmək mümkündür. Bundan sonra məlumatlar parçaya daxil edilən bir sensor vasitəsilə smartfon və planşetlərə göndərilir. Məlumata görə, may ayında Kioto prefekturasının hökuməti 50 ədəd biometrik smart-geyimi əməkdaşların müdafiəsi üçün xəstəxanalara təqdim edib. "Bu, tibb bacılarına xəstə ilə əlaqə yaratmadan sağlamlıqdakı dəyişiklikləri izləməyə imkan verir", - 71 yaşlı mer Kanemasa Sato bildirib.

## Aya səyahət NASA-ya neçəyə başa gələcək?

**İllər sonra ilk dəfə Aya insan göndərəcək NASA bu işin maliyyə detallarını açıqlayıb.**

"Ted.az" bildirir ki, şirkət rəsmilərinin məlumatına görə, NASA bu məqsədlə başqa bir kosmik şirkətlə razılığa gəlib. Müqavilənin şərtlərinə görə, NASA Aya səyahət üçün 187 milyon dollar ödəyəcək. Aya səyahət üçün xərclənəcək bu pullar əməkdaşlığa əsasən, "Northrop Grumman" kosmik şirkətinə ödəniləcək.



### Elan

Qafarov Adil Hacıbəy oğlunun və ailə üzvlərinin adına, Qusar rayonu Aqrar İslahatı Komissiyasının 28 dekabr 2001-ci il tarixli, 14/1 saylı qərarı ilə verilmiş JN0142, kod 30123048 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Qafarov Qafur Hacıbəy oğlunun və ailə üzvlərinin adına, Qusar rayonu Aqrar İslahatı Komissiyasının 28 dekabr 2001-ci il tarixli, 14/1 saylı qərarı ilə verilmiş JN0142, kod 30123048 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Neftçala rayonunda JN:0071, kod: 80707028 nömrəli, Dadaşova Minurə Davud qızı, Dadaşov Abış Davud oğlu, Dadaşov Namiz Davud oğlu, Dadaşov Zahid Davud oğlu, Dadaşov Vahid Davud oğlu, Dadaşova Gülsüm Davud qızının adına verilmiş torpaq mülkiyyətinə dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

**Fəzail İsmayıl Böyükkişi dayısı oğlu İsmayıl Cəfərovun vəfatı ilə əlaqədar onun ailə üzvlərinə, qohumlarına, dostlarına və iş yoldaşlarına dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**





**Qoç** - Mənfi təcrübədən də yararlanmaq olar. Situasiyaya təsir edən kənar amillər sizi gərginlikdə saxlayır. Səhhətinizdəki kiçik problemlərin ağrılara çevrilmələrinə yol verməyin.



**Buğa** - Yaradıcılıq aktivliyi üçün əlverişli gündür. İdeyalarınız uğurlu nəticə verə bilər. Layihənizin reallaşmasında sizə yardımçı olacaq insan varsa, aladır. Emosiyaların təsiri altına düşməyin.



**Əkizlər** - Öz işlərinizi tamamən unudaraq başqalarının problemlərinin həlli ilə məşğul olmayın. Nə isə və ya kimsə səbrinizi sınağa çəkə bilər. Təmkinli olsanız, nəticələr sizi sevindirəcək.



**Xərçəng** - Ev işlərini və ailə qayğılarını unutmayın. Görməli olduğunuz işlərin həcmini və sayını müəyyənləşdirin. Plan çərçivəsində hərəkət edin. Vədlərinizə əməl edin. Sözübütöv olun.



**Şir** - Etibar etdiyiniz insanlarla təmaslarla kifayətlənin. Uğurlar və problemlər seçdiyiniz yolun nə qədər doğru olduğunu göstərəcək. Almaq və nail olmaqla yanaşı paylaşmağı, güzəştə getməyi də unutmayın.



**Qız** - Aktivlik tələb olunan gündür. Emosiyalar güclüdür, hisslər burulğana çevrilib. Situasiyaya nəzarət edin. Yaşamınızda dəyişikliklər ola bilər. Ehtiyatlı olun, istənilən məsələ ilə bağlı irad bildirməyin.



**Tərəzi** - Narahatlıq və nigaranlıq düzgün seçim imkanlarını azalda bilər. Münasibətlərə aydınlıq gətirməyə çalışmaq, önəmli məsələlərlə bağlı qərar vermək, alış-veriş etmək üçün əlverişli gün deyil.



**Əqrəb** - Başa çatmasına az qalmış işləri ön plana çəkərək mühüm məsələləri kölgəyə salmayın. Yeni layihə və ya işə başlamaq şansının yarandığı önəmli zamandır. Gərgin fəaliyyətə, böyük səylərə, ağır fiziki əməyə, emosiyalara və komfortun müvəqqəti pozulmasına hazırlaşın.



**Oxatan** - Perspektivi olan ciddi işlərlə məşğul olun. Situasiyanın təfərrüatları dəyişərək çətinləşə, mürəkkəbdəşə bilər. Lakin əsas məqsəddən yayınmayaraq bütün diqqəti işlərə yönəldin.



**Oğlaq** - Əldə etdiyiniz nailiyyətlərdən basgicəllənməyə düşməyin. Durumu təhlil edin, mövqelərinizi möhkəmlətməyə çalışın. Saatlar keçdikcə gərginlik artaracaq. Qüvvənizi qənaətlə sərf edin.



**Dolça** - Səhər saatlarından etibarən aktiv olun. Vurnuxmayın, tələsməyin. Başladığınız işləri düşünülmüş şəkildə başa vurun. Günün ikinci yarısında yaxın ətrafınızdakı insanlardan narazı qalsanız da, münasibətləri gərməyin.



**Balıqlar** - Bütün diqqəti şəxsi problemlərin həllinə yönəltsəniz, mühüm məsələlər nəzərinizdən yayına bilər. Emosiyalarınızın hərəkətlərinizi idarə etməsinə imkan verməyin. Başqasının hisləri hesabına özünüzü təsdiqləməyə çalışmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Kişi öz əmlakını filə vəsiyyət etdi

**Hindistan sakini əmlakını bir vaxtlar onun həyatını xilas etmiş filə vəsiyyət edib.**



"Oxu.az" xəbər verir ki, qəribə vəsiyyətnamə sahibi, 50 yaşlı Məhəmməd Aktar ölkənin Bihar ştatında yaşayır. M.Aktar qeyd edib ki, bir neçə il əvvəl Moti adlandırdığı fil onu öldürmək istəyən silahlı şəxsə mane olub. Sahibi 2,5 hektar torpaq sahəsini məhz Motiyə vəsiyyət edib. M.Aktarın həyat yoldaşı və övladları ailə başçısının vəsiyyətindən narazı olduqlarını bildiriblər. Kişi isə Motinin onun üçün hansı dəyərə sahib olduğunu anlamayan yaxınlarına görə təəssüfləndiyini qeyd edib.

*Hazırladı: Namiq QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.